1 noyabr 2023 №81 (2050) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

# Ölkəmizdə ilk dəfə Musiqi Forumu keçirildi

## Azərbaycan musiqi mədəniyyətinin aktual məsələləri üç gün ərzində müzakirə olundu

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində 29-31 oktyabr tarixlərində ölkəmizdə ilk dəfə Musiqi Forumu keçirildi.



Ulu öndər Azərbaycana rəhbərliyinin hər iki dövründə mədəniyyətimizin hərtərəfli inkişafını diqqətdə saxlayıb, tarixi-mədəni irsimizin qorunması və təbliği istiqamətində əhəmiyyətli addımlar atılıb. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi tərəfindən bu il təşkil olunan teatr, kino, Azərbaycan dili və ədəbiyyatı, həmçinin musiqi forumları dahi siyasətçinin adı ilə şərəflənən əlamətdar ilə mühüm töhfə, Ümummilli liderin əziz xatirəsinə ehtiramın ifadəsidir.









Musiqi Forumu Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə gerçəkləşdi.

Oktyabrın 29-da "Gülüstan" Sarayında forumun açılış mərasimi keçirildi. Forumun iştirakçıları tərəfindən əvvəlcə I Fəxri xiyabanda mədəniyyətimizin böyük himayədarı olmuş Ümummilli lider Heydər Əliyevin məzarı ziyarət olundu, məzarın önünə gül dəstələri düzüldü, xatirəsi ehtiramla yad edildi. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edildi.

Sonra I Fəxri xiyabanda dahi Üzeyir Hacıbəyli, Qara Qarayev başda olmaqla görkəmli musiqi xadimlərinin də məzarları ziyarət olundu.

Forumun açılış mərasimində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, millət vəkilləri, tanınmış mədəniyyət və incəsənət xadimləri və digər qonaqlar iştirak edirdilər.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli forum iştirakçılarını salamladı. Qeyd etdi ki, il ərzində Ulu öndərin 100 illiyinə həsr olunmuş teatr, kino və Azərbaycan dili və ədəbiyyatı forumları keçirilib. Bu gün isə ölkəmizdə ilk dəfə olaraq Musiqi Forumu təşkil edilir: "Bildiyiniz kimi, Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və müdrik qərarları nəticəsində ölkəmizin mədəni həyatında köklü dəyişikliklər baş verib. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi hər iki dövrdə bütün sahələrlə yanaşı, musiqi sənətinə də xüsusi qayğı və diqqət göstərib. Onun peşəkar musiqinin inkişafı ilə bağlı imzaladığı sənədlər, musiqiçilərin həyat və yaradıcılığı ilə yaxından maraqlanması, onlara göstərdiyi xüsusi qayğı bu gün də öz bəhrəsini verir. Ona görə də Ulu öndərin 100 illiyi çərçivəsində Musiqi Forumunun təşkil edilməsinin çox böyük önəmi var".

*davamı səh. 3-də*

## Qardaşlıq əlaqələrini bundan sonra da gücləndirmək əzmindəyik

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olub, özünün ən möhtəşəm əsəri olan Türkiyə Cümhuriyyətini qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırıb.

Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda vurğulanır.

*səh. 2*

## Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməli qoyulub

Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması mərasimi keçirilib. Azərbaycanın Baş naziri Əli Əsədov və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mərasimdə iştirak ediblər.

*səh. 5*

## Mədəniyyət naziri Sumqayıtda vətəndaşları qəbul edib

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu oktyabrın 31-də Sumqayıt şəhərində gerçəkləşib.

Qəbuldan öncə nazir və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Ümummilli liderin Sumqayıt şəhər Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

*səh. 2*

## TDT-nin sammiti Astanada olacaq

Noyabrın 3-də Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dövlət başçılarının X Zirvə toplantısı keçiriləcək. Bu barədə TDT-nin mətbuat xidməti məlumat yayıb.

"Türk Dövrü!" şüarı altında keçirilən sammitdə təşkilatın geniş gündəliyinə dair məsələlər nəzərdən keçiriləcək, müvafiq qərarlar qəbul edəcək, iqtisadiyyat, ticarət, nəqliyyat və gömrük kimi sahələrdə TDT layihələri ilə bağlı sənədlər təsdiqlənəcək. Liderlər həmçinin çoxtərəfli əməkdaşlıq, regionda və ondan kənarda baş verən hadisələrlə bağlı fikir mübadiləsi aparacaqlar.

Sammitin yekunlarına əsasən, fəaliyyətdə olan sədrlik Özbəkistandan Qazaxıstana keçəcək. Dövlət başçıları bir sıra qətnamələrlə yanaşı, Astana Bəyannaməsini də imzalayacaqlar.

Qeyd edək ki, sammitdən əvvəl Astanada TDT Xarici İşlər Nazirləri Şurası toplanacaq. Nazirlər zirvə toplantısının gündəliyinə daxil olan məsələləri və dövlət başçıları tərəfindən imzalanacaq sənədləri müzakirə edəcəklər.

Xatırladaq ki, türkdilli ölkələrin əməkdaşlıq platformasının əsası 1992-ci ilin 29-31 oktyabrında Ankarada keçirilən ilk zirvə toplantısında qoyulub. 2010-cu ildə bu platforma Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına çevrilib. 2021-ci ildə isə Türk Dövlətləri Təşkilatı adlandırılıb. TDT-nin bundan öncəki zirvə toplantısı 2022-ci il noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində keçirilib.

## Türk dünyasının teatrları Azərbaycanda bir araya gəlib

### TÜRKSOY Beynəlxalq Teatr Festivalı keçirilir

Bir qədər əvvəl Türk dünyasının kino xadimlərini 3-cü "Qorqud Ata" festivalı çərçivəsində bir arada toplayan Azərbaycan bu dəfə qardaş ölkələrin teatrlarının sənət bayramına ev sahibliyi edir. 31 oktyabr – 4 noyabr tarixlərində ölkəmizdə I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçirilir.

Festival Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə təşkil edilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə səyi ilə gerçəkləşən festivala Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı,




Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı, eləcə də Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrı qatılıb.

Ölkəmiz festivalda Azərbaycan Dövlət Akademik Milli Dram, Dövlət Akademik Musiqili, Dövlət Pantomima və Naxçıvan Dövlət Milli Dram teatrları ilə təmsil olunur.

Festivalda həmçinin Türk dünyasının tanınmış teatr mütəxəssisləri iştirak edirlər.

Oktyabrın 31-də Şuşada TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu toplantısı keçirilib.

Qonaqlar Şuşa şəhərinin gəzməli-görməli yerləri ilə tanış olublar.

Toplantıda TÜRKSOY-a üzv ölkələr – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan, eləcə də müşahidəçi üzv olan Şimali Kipr Türk Cümhuriyyəti və Qaqauz Yeri (Moldova) muxtar bölgəsinin dövlət teatr rəhbərləri iştirak ediblər.

*davamı səh. 2-də*

## Özbəkistanda Azərbaycan mədəniyyəti və poeziyası həftəsi



Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə 23-26 oktyabr tarixlərində Daşkənd və Xarəzm vilayətlərində "Azərbaycan mədəniyyəti və poeziyası həftəsi" keçirilib. Silsilə tədbirlər Urgenc şəhərində azərbaycanlı sənətçilərin qala-konserti ilə yekunlaşıb.

*səh. 8*

## Qərbi Azərbaycan toponimləri: tarixin təhrifindən ədalətin bərpasına

Oktyabrın 31-də Milli Məclisdə Regional məsələlər komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan toponimləri: tarixin təhrif olunmasından ədalətin bərpa edilməsinədək" mövzusunda ictimai dinləmə keçirilib.

Dinləmədə millət vəkilləri, Prezident Administrasiyasının, AMEA-nın, Ədliyyə Nazirliyinin nümayəndələri, Milli Məclis yanında Toponimiya komissiyasının, Qərbi Azərbaycan İcmasının üzvləri, hüquqşünas alim və tədqiqatçılar, bələdiyyələrin, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak ediblər.

*səh. 2*

## Muğamatın Seyidi



Noyabrın 1-i Azərbaycan milli musiqisinin və muğam sənətinin bənzərsiz səslərindən biri, ustad xanəndə, Xalq artisti Seyid Şuşinskinin (1889 – 1965) xatirə günüdür. Unudulmaz sənətkarın vəfatından 58 il ötür.

Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu) 12 aprel 1889-cu ildə indiki Füzuli rayonunun Horadiz kəndində dünyaya göz açıb. Peşəkar xanəndə kimi isə milli musiqimizin beşiyi olan Şuşada formalaşıb. İki il Şuşada Mir Möhsün Nəvvabın məktəbində oxuyub. Onun xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun böyük təsiri olub.

Qarabağ xanəndəlik məktəbinə mənsub qüdrətli sənətkar xalqımızın mənəvi dünyasının formalaşmasında müstəsna əhəmiyyət daşıyan qədim muğam ənənələrimizi layiqincə qoruyub yaşadıb. Genişdiapazonlu nadir, ecazkar səsə malik muğam ustası təkrarolunmaz mükəmməl ifaçılıq nümunələri ilə Azərbaycanın musiqi xəzinəsini daha da zənginləşdirib.

1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olan Seyid Şuşinski müəllim kimi də uzun illər ərzində istedadlı musiqiçilərin yetişdirilməsi sahəsində təqdirəlayiq fəaliyyət göstərib.

## Bakıdakı Rus Evində Arif Məlikovun 90 illiyinə həsr olunmuş konsert



*səh. 7*

## Yerlərdə mədəniyyət sahəsində vəziyyət necədir?

İlk müşavirə Quba-Xaçmaz regionunu əhatə edib

*səh. 4*

№81 (2050)
1 noyabr 2023
www.medeniyyet.az

# Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da gücləndirmək əzmindəyik

## Qardaşlıq və birliyimiz ən böyük sərvətimizdir



Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olub, özünün ən möhtəşəm əsəri olan Türkiyə Cümhuriyyətini qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırıb.

Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda vurğulanır.

Məktubda qeyd edilir ki, istiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Cümhuriyyəti yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir.

"Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir", – deyə təbrik məktubunda bildirilir.

Qeyd olunur ki, tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq: "Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik".

# Xalq rəssamı Arif Hüseynov "Şöhrət" ordeni ilə təltif olunub

Prezident İlham Əliyev oktyabrın 30-da Xalq rəssamı Arif Hüseynovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Arif Şahbaz oğlu Hüseynov Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülüb.

Qeyd edək ki, oktyabrın 30-da Xalq rəssamı Arif Hüseynovun 80 yaşı tamam olub.

Sənətkarı əlamətdar yubileyi və dövlət təltifi münasibətilə təbrik edir, cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları arzulayırıq.

# UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daha 55 şəhər daxil edilib

Oktyabrın 31-də – Dünya Şəhərlər Günündə daha 55 şəhər UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə (UCCN) qoşulub.

Təşkilatın saytında yer alan məlumata görə, yeni şəhərlər inkişaf strategiyalarının bir hissəsi kimi mədəniyyət və yaradıcılıqdan istifadə etmək və insan mərkəzli şəhərsalmada innovativ təcrübələr nümayiş etdirmək üçün güclü öhdəliklərinə görə qəbul edilib. Şəbəkə hazırda yeddi yaradıcı sahəni – sənətkarlıq və xalq sənəti, dizayn, film, qastronomiya, ədəbiyyat, media və musiqini təmsil etməklə ümumilikdə 100-dən çox ölkədən 350 şəhəri əhatə edir. Siyahıya yeni daxil edilənlər sırasında Türkiyənin Şanlıurfa və Gürcüstanın Kutaisi şəhərləri də var.

UNESCO iqlim dəyişikliyi, artan bərabərsizlik, eləcə də 2050-ci ilə qədər dünya əhalisinin 68 faizinin şəhərlərdə yaşayacağı proqnozlaşdırılan sürətli urbanizasiya kimi inkişaf edən təhlükələrə qarşı dayanıqlığını gücləndirmək üçün Şəbəkə üzvləri ilə six əməkdaşlıq edəcək. Təşkilatın baş direktoru Odri Azule deyib: "Yaradıcı Şəhərlər Şəbəkəsindəki şəhərlər mədəniyyətə çıxışı artırmaq, həmçinin şəhərin davamlılığı və inkişafı üçün yaradıcılığın gücünü artırmaq məsələsində öncüllük edir".

Şəbəkəyə yeni salınan yaradıcı şəhərlər 2024-cü ilin iyulunda Portuqaliyanın Braqa şəhərində "Növbəti onillikdə gəncləri masaya gətirmək" mövzusunda keçiriləcək UCCN-in illik konfransında iştirak etməyə dəvət olunublar.

Qeyd edək ki, Azərbaycandan bu siyahıda hələlik üç şəhər var. Şəki 2017-ci ildə "sənət və sənətkarlıq" tematikası üzrə, paytaxt Bakı 2019-cu ildə "dizayn" tematikası üzrə, Lənkəran isə 2021-ci ildə "qastronomiya" tematikası üzrə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilib.

# Mədəniyyət naziri Sumqayıtda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşlarla görüşləri təşkil olunur, sakinlərin problem və təklifləri dinlənilir.

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu oktyabrın 31-də Sumqayıt şəhərində gerçəkləşib.

Qəbuldan öncə nazir və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Ümummilli liderin Sumqayıt şəhər Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda əsasən Sumqayıt şəhəri, Abşeron, Xızı və Qubadlı rayonlarından olan vətəndaşlar iştirak ediblər.



Vətəndaşların müraciətləri işlə təmin olunma, Ümummilli lider Heydər Əliyev haqqında kitabın çap edilməsi, mədəniyyət sahəsi ilə bağlı layihələr, təkliflər və digər məsələlərlə bağlı olub.

Mədəniyyət naziri vətəndaşların müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təklifləri dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı qəbulda iştirak edən nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Türk dünyasının teatrları Azərbaycanda bir araya gəlib

## TÜRKSOY Beynəlxalq Teatr Festivalı keçirilir

əvvəli səh. 1-də

TÜRKSOY-a üzv ölkələrin teatr rəhbərləri və mütəxəssislərinin qatıldığı toplantıda qardaş ölkələrdə teatr sahəsinin inkişaf məsələləri ətrafli müzakirə olunub. Toplantıda mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov və Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı da iştirak edib.

***

Festival tamaşaları isə Bakının bir sıra teatrlarının səhnəsində nümayiş etdirilir.

Oktyabrın 31-də festivalın müsabiqədənkənar iki tamaşası göstərilib.

Azərbaycan Dövlət Pantomima Teatrı "Manqurt" tamaşasını (Ç.Aytmatov) Akademik Rus Dram Teatrının səhnəsində təqdim edib. Naxçıvan Dövlət Milli Dram Teatrının "Edama məhkumun son günü" tamaşası (V.Hüqo) isə Akademik Musiqili Teatrda nümayiş olunub.

I Beynəlxalq TÜRKSOY Teatr Festivalının rəsmi açılışı noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında olacaq.

Açılış mərasimindən sonra Milli Dram Teatrı repertuarındakı ən uzunömürlü əsəri – "Qarabağnamə" tamaşasını (İ.Əfəndiyev) festival çərçivəsində təqdim edəcək.

Noyabrın 2-də festival proqramında daha üç tamaşa var. İstanbul Dövlət Teatrı (Türkiyə) "Bir nəfəs Dədə Qorqud" tamaşasını Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində (saat 15:00), Milli Dram Teatrı "Manqurt" tamaşasını (Ç.Aytmatov) özünün kiçik səhnəsində (müsabiqədənkənar; saat 16:00), Səmərqənd Musiqili Dram Teatrı isə Əlişir Nəvainin eyniadlı poeması əsasında hazırladığı "Leyli və Məcnun" tamaşasını Akademik Musiqili Teatrın səhnəsində göstərəcək.

3-4 noyabr tarixlərində festival çərçivəsində daha dörd tamaşa nümayiş olunacaq.

Festivalın bağlanışı və mükafatlandırma mərasimi noyabrın 4-də axşam Akademik Musiqili Teatrda keçiriləcək.




## "TÜRKSOY bu festivalın ilk dəfə ölkəmizdə keçirilməsinə böyük önəm verib"

"TÜRKSOY Mədəniyyət Nazirliyi ilə birgə belə bir festivalın ilk dəfə ölkəmizdə keçirilməsinə çox böyük önəm verib. Bu baxımdan TÜRKSOY-un rəhbərliyinə minnətdarlığımızı bildiririk".

TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının oktyabrın 31-də Şuşada keçirilən 9-cu iclasında iştirak edən Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor İsrafil İsrafilov bunu jurnalistlərə açıqlamasında deyib.

Bu ilin ölkəmizdə bir sıra əlamətdar ildönümləri yadda qaldığını deyən sənətşünas toplantı çərçivəsində türkdilli ölkələrdə teatr və yaradıcılıq, təşkilati, kadr, repertuar problemi və maliyyə təsərrüfatı məsələlərini müzakirə etdiklərini bildirib.

O, müzakirələrin TÜRKSOY-a üzv ölkələrin bir-birinin ədəbiyyatını, dramaturgiyasını tanımaq, əsər, pyes mübadiləsi, ayrı-ayrı müəlliflərin əsərlərini bir-birinin səhnələrinə çıxarmaq, rejissorların, səhnə ustadlarının yaradıcılıq əlaqələrini genişləndirmək baxımından faydalı olacağını vurğulayıb.

Qeyd edək ki, professor İsrafil İsrafilov 2011-ci ildə əsası qoyulan TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının ilk sədri olub.

# ARİ-dən Qazaxıstan rəssamlarına yubiley hədiyyəsi

Azərbaycan Rəssamlar İttifaqı (ARİ) Qazaxıstan Rəssamlar İttifaqının 90 illik yubileyi ilə əlaqədar və birgə keçiriləcək sərgi çərçivəsində müasir Azərbaycan rəssamlarının əsərlərini həmkarlarına hədiyyə edəcək. Rəsm əsərləri Abılxan Kasteyev adına Qazaxıstan Dövlət İncəsənət Muzeyi və Qazaxıstan Milli Muzeyi eksponatlarının bir hissəsi olacaq.

ARİ-dən bildiriblər ki, noyabrın 7-də Almatı şəhərindəki Qazaxıstan Dövlət İncəsənət Muzeyində yerli rəssamların əsərlərindən ibarət yubiley sərgisi açılacaq. Dekabrın 13-də isə həmin sərgi paytaxt Astanada – Qazaxıstan Milli Muzeyində nümayiş olunacaq. Sərginin ekspozisiyasına azərbaycanlı rəssamların da əsərləri daxil ediləcək.

Qazaxıstandakı sərgiyə Nazim Rəhmanovun ("Ana və uşaq", 2009), Həmzə Abdullayevin ("Abşeronda bahar", 2023), Bəhram Xəlilovun ("City Red Medit", 2001), Adil Yusifovun ("Gəmi", 2020) rəsmləri göndəriləcək.



ARİ yubiley münasibətilə qazaxıstanlı həmkarlarına təbrik məktubu da ünvanlayıb.

# Qərbi Azərbaycan toponimləri: tarixin təhrifindən ədalətin bərpasına

## Milli Məclisdə ictimai dinləmə keçirilib



Oktyabrın 31-də Milli Məclisdə Regional məsələlər komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan toponimləri: tarixin təhrif olunmasından ədalətin bərpa edilməsinədək" mövzusunda ictimai dinləmə keçirilib.

Dinləmədə millət vəkilləri, Prezident Administrasiyasının, AMEA-nın, Ədliyyə Nazirliyinin nümayəndələri, Milli Məclis yanında Toponimiya komissiyasının, Qərbi Azərbaycan İcmasının üzvləri, hüquqşünas alim və tədqiqatçılar, bələdiyyələrin, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov üç il əvvəl Vətən müharibəsində əldə etdiyimiz Zəfərin Qərbi Azərbaycandan olan soydaşlarımızın da öz tarixi torpaqlarına qayıdışı üçün yeni imkanlar yaratdığını vurğulayıb.

AMEA-nın prezidenti, Milli Məclis yanında Toponimiya komissiyasının sədri, Milli Məclisin deputatı İsa Həbibbəyli "Qərbi Azərbaycan toponimlərinin Ermənistan tərəfindən saxta yollarla təhrif edilməsi və ədalətin bərpası yolları" mövzusunda məruzə edib. Akademik XX əsr boyunca indiki Ermənistan ərazisində xalqımıza aid adların ardıcıl olaraq total şəkildə tamamilə dəyişdirilməsinin, silinməsinin mərhələləri və formaları barədə məlumat verib.

Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və müasir mərhələdə zorakılıqla dəyişdirilmiş toponimlərin bərpa edilməsi çalışmaları" mövzusunda çıxış edib. Vurğulayıb ki, ermənilər zaman-zaman dəyişdirə bilmədikləri tarixi-mədəni irsimizi yer üzündən siliblər.

İcma sədri Prezident İlham Əliyevin Qərbi Azərbaycan mövzusuna göstərdiyi diqqətdən söz açaraq dövlətimizin başçısının ideya müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyasından danışıb. Qərbi azərbaycanlıların qayıdış tələbinin insan hüquq və azadlıqlarına, beynəlxalq hüquqa tam uyğun olduğunu bildirən Əziz Ələkbərov Qərbi Azərbaycan toponimlərinin bərpası istiqamətində icmanın gördüyü işlər barədə məlumat verib.

Dinləmədə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Musa Quliyev, deputatlardan Sabir Rüstəmxanlı, Hikmət Məmmədov, Məlahət İbrahimqızı, Nizami Cəfərov, tədbirə dəvət olunmuş qonaqlardan akademik Abel Məhərrəmov, filologiya elmləri doktorları Firudin Cəlilov, İbrahim Bayramov və başqaları çıxış ediblər.

Çıxışlarda Qərbi Azərbaycanda mədəni irsimizin planlı şəkildə məhv olunmasından və mənimsənilməsindən söz açılıb, tarixi torpaqlarımızdakı toponimlərin və digər coğrafi adların, milli irsimizin bərpası, xalqımızın öz yurduna qayıdışının təmin edilməsi barədə qeyd və təkliflər səsləndirilib.

Tədbirə yekun vuran Siyavuş Novruzov Azərbaycan xalqının tarixi yaddaşının, Vətən sevgisinin güclü olduğunu xüsusi vurğulayaraq Prezident İlham Əliyevin sözlərindən sitat gətirib: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

# Ölkəmizdə ilk dəfə Musiqi Forumu keçirildi

## Azərbaycan musiqi mədəniyyətinin aktual məsələləri üç gün ərzində müzakirə olundu




*əvvəli səh. 1-də*

Nazir bildirdi ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan mədəniyyəti yeni mərhələyə qədəm qoyub: “Ölkəmiz mədəniyyəti, xüsusilə musiqisi ilə beynəlxalq aləmdə tanınıb. Milli mədəni dəyərlərimizin dünya miqyasında təbliği və tanıdılması istiqamətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə görülən işlər xüsusilə diqqətəlayiqdir. 2003-cü ildə Azərbaycan musiqisinin ən dəyərli incilərindən olan muğam sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına salınaraq bəşəriyyətin incisi adını qazanıb”.

Musiqi Forumunun əhəmiyyətinə toxunan nazir vurğuladı ki, tədbir çərçivəsində ölkəmizin tanınmış musiqi xadimləri ilə yanaşı, xaricdən dəvət olunmuş qonaqların da bu sahənin çağdaş vəziyyəti ilə bağlı fikirləri dinləniləcək, fikir mübadiləsi aparılacaq. Forum günlərində Azərbaycan milli musiqi ənənələrinin yaşadılması, dünyaya tanıdılması ilə bağlı məsələlər də diqqət mərkəzində olacaq. Forumda səslləndirilən təkliflər ümumiləşdiriləcək, təhlil ediləcək və “Azərbaycan mədəniyyəti – 2040” Konsepsiyasında öz əksini tapacaq.

Adil Kərimli çıxışının sonunda forumun təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirdi, tədbirin işinə uğurlar arzuladı.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) rektoru Xalq artisti Fərhad Bədəlbəyli mədəniyyətin təbliğində musiqinin önəmini qeyd etdi. Söylədi ki, musiqiçilərimiz bu gün bütün dünyada ölkəmizi uğurla təmsil edirlər.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə çıxışında irihəcmli və akademik əsərlərə böyük ehtiyac duyulduğunu dedi. O, ümidvar olduğunu bildirdi ki, bu qəbildən tədbirlər musiqi sahəsinin inkişafına öz töhfəsini verəcək.

Çıxışlardan sonra Azərbaycan musiqisinin inkişaf yolunu özündə ehtiva edən videoçarx nümayiş olundu.

Açılış mərasimindən sonra forum işini panel müzakirələrlə davam etdirdi.

### Musiqi təhsili: bəstəkarlıq və ifaçılıq məktəbləri

Forumun birinci günündə keçirilən ilk panel iclası “Azərbaycanda musiqi təhsili: bəstəkarlıq və ifaçılıq məktəbləri” adlanırdı. Paneldə “Ölkədəki musiqi təhsil sisteminin nailiyyətləri və çətinlikləri”, “Ali musiqi təhsili: yeni peşə yönümləri və ixtisaslaşmalar tələbi qarşısında”, “Bəstəkar musiqisinin ifaçılıq problemləri: aktual problemlər və onların həlli yolları”, “Musiqi repertuarının zənginləşdirilməsi və bəstəkarlara dövlət sifarişləri” və “Azərbaycanda bəstəkar musiqisinin nəşri, səs yazısı və yayımlanma problemləri” mövzuları müzakirə olundu.

Panelin moderatoru bəstəkar, “Cadenza” kamera orkestrinin bədii rəhbəri Türkər Qasımzadə Üzeyir bəyin “Biz necə iş görürük?” lətifə-felyetonunu xatırlatmaqla sözə başladı. O, kiçik məqamlara diqqət yetirmədən böyük problemlərin həllinin mümkün olmadığını vurğuladı.

Sonra söz musiqişünas, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) rektoru professor Ceyran Mahmudovaya verildi. Rektor orta məktəb proqramlarında musiqi təhsilinin səviyyəsinə toxunaraq şagirdlərin xor məşğələlərinə cəlb edilməsinin vacibliyini belə əsaslandırdı ki, xor istedadından asılı olmayaraq hər kəs üçün əlçatan musiqi məşğuliyyətidir.

Növbəti spiker – musiqişünas, Əməkdar müəllim, Bakı şəhər Fikrət Əmirov adına 6 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Adilə Yusifova musiqi məktəblərində türk xalqlarının musiqi tarixinin öyrənilməsinin vacibliyini nəzərə çatdırdı.

Bəstəkar, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru Xalq artisti Sərdar Fərəcov Üzeyir bəyin milli musiqiçi kadrların yetişdirilməsi sahəsində gördüyü işləri yada saldı.

Elm və Təhsil Nazirliyi Elm sektorunun müdiri Turxan Süleyman




isə çıxışında orta ixtisas və ali musiqi təhsili, mütəxəssis hazırlığının meyarları barədə məlumat verdi.

Akademik Opera və Balet Teatrının baş dirijoru Əməkdar artist Əyyub Quliyev yeni səhnə əsərlərinin dövlət tərəfindən satınalınması, əsərlərin not yazılarının bərpası və yenidən nəşri probleminə toxundu.

Birinci paneldə son çıxış edən bəstəkar-pedaqoq Tahir İbişov musiqi məktəblərində təhsil sisteminin yenilənməsi, orta məktəblərdə musiqi fənninə dırnaqarası münasibətin bəzi hallarda hələ də davam etməsindən narahatlığını dilə gətirdi.

Sonra paneldə qaldırılmış mövzular ətrafında müzakirələr aparıldı.

Müzakirələrdə klassik mahnı nümunələrinin geniş təbliğinə ehtiyac olduğu vurğulandı. Həmçinin yeni musiqi əsərlərinin dövlət tərəfindən alınması ənənələrinin bərpası təklifi və s. problemlər gündəmə gətirildi.

### Ənənəvi janrlara münasibət necədir?

Forum oktyabrın 29-da günün ikinci yarısında “Ənənəvi musiqi janrları” mövzusunda növbəti panellə işini davam etdirdi.

Paneldə “Muğam sənəti: dəsgah ənənəsi və sərbəst kompozisiya”, “Aşıq musiqisi ənənələrinin canlandırılması yolları”, “Ənənəvi musiqi nümunələrinin toplanması və sistemləşdirilməsi problemləri”, “Ənənəvi musiqi ifaçılığında problemlər və onların dəyərləndirilməsi”, “Azərbaycan milli musiqi ənənələrinin müasir musiqi janrlarında mövcudluğu və problemlər” mövzularında müzakirələr aparıldı.

Musiqişünas, “Media FM” radiosunun direktoru Rüstəm Əliyevin moderatorluğu ilə gerçəkləşən paneldə bəstəkar, Xalq artisti, Azərbaycan Milli Konservatoriyasının (AMK) rektoru professor Siyavuş Kərimi ibtidai musiqi təhsili, orta ixtisas musiqi məktəblərindən gələn tələbələrin potensialı barədə söz açdı. Ölkəmizdə müasir tələblərə cavab verən səsyazma studiyalarının olmadığını diqqətə çatdırdı, kadrların işlə təminatı, konsertlərin təşkili məsələlərindən danışdı. Qeyd etdi ki, Azərbaycandan fərqli olaraq keçmiş ittifaq respublikalarının bir çoxunda konsert birlikləri fəaliyyətini davam etdirir. Ölkəmizdə belə bir qurumun fəaliyyətinə ehtiyac var.

Musiqişünas, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun baş elmi işçisi professor Nailə Rəhimbəyli aşıq yaradıcılığı, onun müasir dövrə, yeni yaradıcı düşüncəyə inteqrasiyası barədə danışdı. Ustad-şagird münasibətlərinin əhəmiyyətini vurğulayan alim aşıq sənəti ilə bağlı tədris vəsaitlərinin azlığına diqqət çəkdi.

AMK-nın professoru, musiqişünas, Əməkdar incəsənət xadimi Fəttah Xalıqzadə ənənəvi musiqi janrları, folklor nümunələrinin toplanılması və sistemləşdirilməsi məsələlərindən bəhs etdi.

UNESCO-nun qeyri-maddi mədəni irs üzrə eksperti, musiqişünas, Əməkdar incəsənət xadimi Sənubər Bağırova muğam sənəti, onun araşdırılması və müasir vəziyyətindən söz açdı. O, müasir muğam və aşıq sənətlərinin inkişafı ilə bağlı məsələlərin həlli istiqamətində müvafiq addımların atılmasının vacibliyini vurğuladı.

AMK-nın dosenti, ozan Fəxrəddin Baxşəliyev (Salim) aşıq və muğam sənətlərinin incəsənətə çevrildiyini vurğuladı, bu sahələrin fəlsəfəsinin açılmasının əhəmiyyətini qeyd etdi.

Xanəndə, Əməkdar artist Nuriyyə Hüseynova muğamların tədrisi məsələlərinə nəzər saldı, bu barədə təkliflərini dilə gətirdi.

Bəstəkar Pikə Axundova muğamşünaslığın qarşısında duran vəzifələrdən söz açdı.

Çıxışlardan sonra suallar cavablandırıldı, fikir mübadiləsi aparıldı.



### Milli musiqi sənayesinin inkişaf məsələləri

Musiqi Forumunun oktyabrın 30-da gerçəkləşən ilk paneli “Milli musiqi sənayesinin inkişafı” mövzusuna həsr olunmuşdu.

Pianoçu, “Gamma group” şirkətinin direktoru Zəhra Bədəlbəylinin moderator olduğu paneldə musiqi sənayesinin ekosisteminin formalaşması, daxili bazarın imkanlarının genişləndirilməsi, musiqi məhsullarının yeni kommersiyalaşma üsulları, musiqi sənayesində əqli mülkiyyət hüquqları, dinləyici kütləsinin cəlb olunması yolları və alternativ və underground musiqi cərəyanlarının perspektivləri (rok, rep, meyxana və s.) kimi məsələlər ətrafında çıxışlar dinlənildi.

Əqli Mülkiyyət Agentliyi Aparatının rəhbəri Xudayət Həsənli əqli mülkiyyət, musiqi əsərlərinin satınalınması məsələlərindən danışdı.

“Xəzər” TV-nin prezidenti, “M Group Production” şirkətinin rəhbəri Xalq artisti Murad Dadaşov televiziyanın kütlənin zövqünə təsir imkanları və yaradıcılıq sənayesinin tənzimlənməsi mexanizmlərindən bəhs etdi.




Bəstəkar, Əməkdar artist Rain Sultanov musiqi təhsili ocaqlarında əsas ixtisaslarla yanaşı, prodüser, marketinq-menecment üzrə də mütəxəssislərin hazırlanmasının vacibliyini vurğuladı.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, “Apeks Advayzers” hüquq şirkətinin təsisçisi Nazlı Əhmədova milli musiqi sənayesinin inkişafının hüquqi aspektlərini, müəlliflik məsələsi ilə bağlı fikirlərini bölüşdü.

Bəstəkar, pianoçu İsa Məlikov musiqi təhsilində təcrübəli mütəxəssislərin çatışmazlığı məsələsini gündəmə gətirdi. Bunun üçün dünyada qəbul edilmiş mütərəqqi sistemlərin ölkəmizdə də tətbiqinin zəruri olduğunu söylədi.

Prodüser və televiziya aparıcısı Emin Əfəndi qeyd etdi ki, musiqi və ifaçıların olması hələ bu sahədə sənayenin mövcudluğuna dəlalət etmir. Bir çox hallarda bu sahənin meyarları toy bazarı ilə tənzimlənir.

Sonra tədbir iştirakçılarının sualları cavablandırıldı.



### Milli mədəni ənənələrin qlobal miqyasda təbliği

Oktyabrın 30-da günün ikinci yarısında “Milli mədəni ənənələrin qlobal miqyasda təbliği” mövzusunda forumun IV paneli gerçəkləşdi.



Əməkdar incəsənət xadimi, musiqişünas Cahangir Səlimxanovun moderatorluğu ilə keçən iclasda Türkiyədən Efruz Çakırkaya (İstanbul musiqi festivalının direktoru), Rusiyanın Əməkdar artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri Ruslan Pronin, “K2İD Productions” (Yunanıstan) şirkətinin rəhbəri İlias Kokotos və Danimarkadan Karolina Vallejo (“Real World Music Label”in təsisçi və bədii rəhbəri) çıxış etdilər.

Akademik musiqinin təqdimatında yeni çağırışlar, multikultural cəmiyyətlərdə etnik ənənələrin qorunması, bu günün musiqi ənənələri: hamar ötürülmə, yaxud kəskin dəyişiklik, musiqi sənayesinin dövriyyədə olan rəqəmsal vasitələrinin tətbiqində yaranan təmayüllər, qlobal mədəniyyət mübadiləsində Azərbaycan musiqisi və musiqiçilərinin iştirak perspektivləri: kənardan baxış mövzuları diqqət mərkəzinə gətirildi.

Efruz Çakırkaya klassik musiqi ənənəsi və tamaşaçının bu musiqiyə marağının artırılması məsələlərindən söz açdı, rəhbərlik etdiyi İstanbul musiqi festivalının tarixi və fəaliyyəti haqqında məlumat verdi.

Baletmeyster Ruslan Pronin Azərbaycan xoreoqrafiya məktəbinin köklü ənənələrə malik olduğunu bildirdi, bu sənətin beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl addımlar atılmasının əhəmiyyətini vurğuladı.

Almaniyadan musiqiçi və musiqi meneceri Nikolas Rexroth ölkəsində 240 peşəkar musiqi təsisatının olduğunu dedi, təkcə Berlində 7 böyük simfonik orkestrin fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Bildirdi ki, bu təsisatların əksəriyyəti dövlət tərəfindən maliyyələşir. O, pandemiyadan sonra mədəni layihələrin təbliğatı, klassik musiqiyə marağın artırılması istiqamətində marketinqin tətbiqi üsulları, dizayn, afişa təqdimatı, habelə konsertlər üçün uğurlu məkan seçimi kimi məsələlərə də toxundu.

Yunanıstanlı qonaq spiker İ.Kokotos “Avroviziya” mahnı müsabiqəsi ilə məşhurlaşan təşkilatlarının fəaliyyətindən söz açdı. Dedi ki, “K2İD Productions” müsabiqə üçün iştirakçıları təşviq etməklə məşğul olur.

Böyük Britaniyadan Linda Riçardson musiqi təhsili sahəsindəki yeniliklərlə bağlı məruzə etdi. Musiqi təhsilində innovasiyalar, bu sahəyə dəstək üçün maliyyə mənbələri və şagirdlərin təqaüdlə təmin edilmələri ilə bağlı məlumat verdi. Təhsildə beynəlxalq təcrübə, yeni çağırışlar istiqamətində atılan addımların əhəmiyyəti vurğulandı.

Çıxışlardan sonra iştirakçıları maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparıldı.

### Musiqişünaslıq araşdırmalar kəsişməsində

Oktyabrın 31-də, forumun sonuncu iş günündə “Azərbaycan musiqişünaslığı araşdırmalar kəsişməsində” mövzusunda panel iclası keçirildi.

Musiqişünas, Beynəlxalq Musiqi Şurası Azərbaycan şöbəsinin sədri Nigar Axundovanın moderatorluğu ilə gerçəkləşən paneldə “Azərbaycan musiqi elminin inkişaf istiqamətləri: strategiya və taktika”, “Mədəniyyətlərarası dialoq kontekstində Azərbaycan musiqişünaslığının rolu”, “Azərbaycanda musiqi tənqidi və jurnalistikası: mövcud problemlər” və “Müasir dövrdə musiqi sosiologiyası” mövzuları üzrə çıxışlar dinlənildi.

AMK-nın elmi işlər üzrə prorektoru Əməkdar incəsənət xadimi Lalə Hüseynova milli musiqi elminin inkişafından danışarkən təmsil etdiyi təhsil ocağının təcrübəsindən söz açdı. O, şərqşünas, musiqişünas kadrların əksəriyyətinin artıq yaşlı nəslin nümayəndələri olduğunu dedi: “Musiqişünas olmaq istəyən gənclərin arasında ingilis dilini bilənlər var. Ancaq zəngin elmi ədəbiyyatın olduğu rus dilini bilənlər azdır. Buna görə də elmi ədəbiyyatın Azərbaycan dilinə tərcüməsi zəruridir”.

Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi Zemfira Qafarova musiqişünas əməyinin maddi baxımdan qiymətləndirilməsinin vacibliyinə toxundu. Musiqinin təbliğində böyük ənənələrin yaşadılmasının rolunu qeyd edən Z.Qafarova Azərbaycan Televiziyasında Əfsər Cavanşirovun yaratdığı “Bənövşə” uşaq xorunun ləğv edilməsindən təəssüfləndiyini dilə gətirdi.

“Musiqi dünyası” jurnalının baş redaktoru, BMA-nın Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri Əməkdar incəsənət xadimi Tariyel Məmmədov xanəndə və ifaçıların illər öncə lentə alınmış səs yazılarının bərpası, elektron daşıyıcılara köçürülməsi və təbliğinin zəruri olduğunu diqqətə çatdırdı. O, dövlət dəstəyi ilə “milli yaddaş institutu”nun təsis edilməsi təklifini də səsləndirdi.

Növbəti spiker, ADMİU-nun Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri Əməkdar incəsənət xadimi Kamilə Dadaşzadə son illər musiqi sahəsi ilə bağlı elmi-tədqiqat əsərlərinin əksəriyyətinin dövrün tələblərindən geri qaldığını, tədqiqdən daha çox təsvirdən ibarət olduğunu vurğuladı. K.Dadaşzadə ölkəmizdə musiqi elminin vahid inkişaf konsepsiyasının hazırlanmasını vacib hesab etdiyini bildirdi.

BMA-nın Musiqi nəzəriyyəsi kafedrasının müdiri professor Könül Nəsirova musiqişünas kadrların hazırlanması problemlərinə diqqəti çəkdi. Qeyd etdi ki, biz yalnız Azərbaycan Respublikası ərazisində yaranan musiqi əsərlərini araşdırmaqla məşğul olmamalıyıq. Bununla Azərbaycan musiqi mühitinin simasını aydın təsəvvür etmək mümkün deyil.

Musiqişünas, Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə çıxışında musiqi mədəniyyətinin təbliği məsələlərinə toxundu. Elmi nəşrlərin mövcudluğunu müsbət qiymətləndirən alim daha geniş auditoriyaya hesablanmış elmi-kütləvi nəşrlərin də olmasının zəruriliyini qeyd etdi. O, gənc musiqişünaslara stimul yaradılması məsələsinə də toxunaraq bu sahədə araşdırma aparmaq istəyənlərin məqalə yazmağa həvəssiz olduqlarını, söz ehtiyatlarının kasadlığını diqqətə çatdırdı.

Çıxışlardan sonra iştirakçıların sualları ətrafında müzakirələr aparıldı.



### Xoreoqrafiya sənəti: milli rəqs, balet, müasir rəqs formaları

Forum oktyabrın 31-də “Xoreoqrafiya sənəti: milli rəqs, balet, müasir rəqs formaları” mövzusunda VI panel iclası ilə işini başa vurdu.

Xoreoqraf Akif Kərimlinin moderator olduğu sonuncu paneldə “Milli rəqs ənənələrinin qorunması və təhrif olunma təhlükələrinə müqavimət”, “Rəqs təbliğatı infrastrukturunun təkmilləşdirilməsi”, “Azərbaycanda müasir rəqs sistemlərinin tətbiq olunması: imkanlar və problemlər”, “Rəqqas peşəsinə yönləndirmə: təhsil, karyera imkanları, sosial təminat mexanizmləri”, “Uşaq rəqs studiyaları, rəqs təlimi” kimi aktual mövzular müzakirəyə çıxarılmışdı.

Xoreoqraf, Bakı Xoreoqrafiya Akademiyasının rektor əvəzi Əməkdar artist Nailə Məmmədzadə rəhbərlik etdiyi tədris ocağının problemlərindən, rəqqas və balet artistlərinin sosial təminatı məsələlərindən söz açdı.

Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri Xalq artisti Rüfət Xəlilzadə Azərbaycan milli rəqs sənətinin korifey isimlərini yada saldıqdan sonra müasir dövrdə milli rəqsə gətirilən “yamaq” elementlər, geyimlərdəki təhriflərə diqqət çəkdi. O, həmçinin xoreoqrafiya sahəsində çalışanların 40 yaşdan sonra pensiyaya çıxmalı olduğunu dedi. Bildirdi ki, vaxtında göstərilməyən maddi təminat gəncləri, valideynləri rəqs sənətindən uzaqlaşdırır.

Baletmeyster, Xalq artisti Mədinə Əliyeva sovet dövründə balet artistləri üçün yaradılmış şəraitin bu gün bərpasına ehtiyac olduğunu söylədi. O, Ulu öndər Heydər Əliyevin 90-cı illərdə Azərbaycan balet sənətini tənəzzüldən qurtardığını da minnətdarlıqla vurğuladı.

Musiqişünas, dosent Rauf Bəhmənli unudulmuş rəqs melodiyalarının toplanılması, rəqslərimizin plagiat və saxtakarlıqdan qorunması üçün tədbirlərin görülməsinin vacibliyini vurğuladı. Bildirdi ki, bu prosesə uşaq incəsənət məktəblərindən başlanılması məqsədəuyğun olar.

Balet artisti, Akademik Opera və Balet Teatrının direktor müavini Əməkdar artist Fərid İbrahimov dedi ki, oğlan ifaçıların orduda xidmətdən sonra səhnə formasına qayıda bilməməyi ciddi problemdir. Bunun üçün onların hərbi ansambllarda çalışması, həmçinin BXA-da hərbi kafedranın bərpa olunması təkliflərini səsləndirdi.



Xoreoqraf Nigar İbrahimbəyli isə orta məktəblərdə 7-ci sinfədək rəqs fənninin tədris olunması təklifi ilə çıxış etdi. Dedi ki, müasir rəqs sənətinin geniş imkanları var və bu janrı milli rəqs sənəti ilə yanaşı, inkişaf etdirmək perspektivli olar.

Çıxışlar ətrafında müzakirələr aparıldı. BXA-nın müəllimi Sevda Axundova, BMA-nın rektoru Fərhad Bədəlbəyli, qocaman rəqs ustası, Xalq artisti Roza Cəlilova, bəstəkar, Əməkdar incəsənət xadimi Vüqar Camalzadə, BMA-nın tələbəsi Aytac Vəliyeva və başqaları mövzu üzrə suallarını səsləndirdilər, təkliflərini dilə gətirdilər.

Bununla da ölkəmizdə ilk dəfə keçirilən və üç gün davam edən Musiqi Forumu başa çatdı. Forum iştirakçıları “Gülüstan” Sarayının qarşısında ailə fotosu çəkdirdilər.

**Gülcahan Mirməmməd**
**Həmidə Nizamiqızı**
**Lalə Azəri**
**Nurəddin Məmmədli**
**Foto: Həbib Hüseynov**

# Yerlərdə mədəniyyət sahəsində vəziyyət necədir?

## Mədəniyyət nazirinin iştirakı ilə keçirilən ilk müşavirə Quba-Xaçmaz regionunu əhatə edib

Oktyabrın 28-də Xaçmaz rayon Heydər Əliyev Mərkəzində mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) üzrə mədəniyyət sahəsinin vəziyyətinə həsr olunan müşavirə keçirilib.

Müşavirədə nazirliyin məsul nümayəndələri, regional idarənin tabeliyindəki mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər.

Açılış nitqi söyləyən mədəniyyət naziri Adil Kərimli müşavirə iştirakçılarını salamlayıb. Qeyd edib ki, birincisi keçirilən regional müşavirə bundan sonra digər regional idarələri əhatə edəcək. Müşavirənin keçirilməsində məqsəd regionlarda mədəniyyət sahəsində olan problemləri dinləmək, onların həlli yollarını tapmaqdır: "İstərdik ki, Prezident






İlham Əliyevin Mədəniyyət Nazirliyinin qarşısında qoyduğu əsas vəzifələrə və öhdəliklərə uyğun olaraq ümumi strateji istiqamətləri hər biriniz biləsiniz. Məqsəd həm də fəaliyyətimizi bu istiqamətdə vahid komanda şəklində təşkil etməkdən ibarətdir".

2020-ci ilin Vətən müharibəsində xalqımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yumruq kimi birləşib şanlı Zəfər qazandığını vurğulayan nazir ötən ay Qarabağda keçirilən antiterror tədbirlərinin tariximizdəki əhəmiyyətini də qeyd edib.

Nazirliyin il ərzində keçirdiyi layihələr haqqında məlumat verən Adil Kərimli milli-mənəvi dəyərlərə münasibət, kadr potensialı və digər məsələlər üzrə çatışmazlıqlara toxunub, mövcud problemlərin həlli ilə bağlı fikirlərini bildirib.

Sonra nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri çıxış edərək həyata keçirilən işlər və qarşıda duran məsələlər haqqında məlumat veriblər. Eyni zamanda regionda çalışan mədəniyyət işçilərinin fikir və təklifləri dinlənilib, qaldırılan məsələlərlə bağlı müzakirələr aparılıb.

Şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya, işlə təmin olunmalarında xüsusi münasibətə görə, mədəniyyət işçiləri isə yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Müşavirəyə yekun vuran nazir qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlarını verib.

**N.Məmmədli**

# Naxçıvanlı incəsənət ustaları Qarsda konsert verib

Naxçıvan Dövlət Filarmoniyasının Kamera orkestri Türkiyənin Qars şəhərində Ulu öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illik yubileyləri münasibətilə konsert proqramı ilə çıxış edib.



Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə keçirilən konsert Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra"nın səsləndirilməsi ilə başlayıb.

Daha sonra bəstəkar və xalq mahnıları təqdim edilib. Prezident mükafatçısı Cahangir Qurbanovun dirijoru olduğu musiqi axşamında filarmoniyanın solisti Vəli Səfərovun ifasında F.Əmirovun "Kor ərəbin mahnısı" və Ü.Hacıbəylinin "Çırpınırdın, Qara dəniz" mahnıları, Prezident mükafatçısı Nurlan Nuriyevin kamançada və Babək Rayon Mədəniyyət İdarəsinin müdiri Fətəli Axundzadənin tarda solo ifaları, duetləri qarslı musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

Konsert "Sarı gəlin" xalq mahnısının ifası ilə sona çatıb.

# Türkiyə-Azərbaycan qardaşlığı sərgisi

Naxçıvan MR Rəssamlar Birliyinin təşkilatçılığı ilə 27-29 oktyabr tarixlərində Türkiyənin Çorum Bələdiyyəsinin Sənət Qalereyasında "Türkiyə-Azərbaycan qardaşlığı" adlı rəsm sərgisi keçirilib.

Sərgi Ulu öndər Heydər Əliyevin anadan olmasının, Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illik yubileylərinə və Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin 20-ci ildönümünə həsr olunub.

Sərgidə naxçıvanlı 40 rəssamın 100 əsəri türkiyəli sənətsevərlərə təqdim edilib. Sərginin açılış mərasimində tədbirin təşkilatçısı, Naxçıvan MR Rəssamlar Birliyinin üzvü Nilgün Ayşecik Çevik, birliyin sədri Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri Həbibə Allahverdiyeva, Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin dekanı Cavid İsmayılov, Çorum Şəhər Bələdiyyəsinin sədri Halil İbrahim Aşqın çıxış edərək Türkiyə ilə Azərbaycanın tarixən mövcud olan dostluq, qardaşlıq əlaqələrindən danışıblar.

# "Bəla" — maarifləndirici tamaşa

Abşeron rayon Mədəniyyət Mərkəzində (Xırdalan şəhəri) Xalq artisti Şükufə Musayevanın Asif Kəngərlinin "Bəla" əsəri əsasında hazırladığı eyniadlı tamaşa nümayiş olunub.



Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin yaratdığı problem və fəsadları əks etdirən tamaşa izləyicilərin alqışları ilə qarşılanıb. Tamaşanın nümayişindən sonra çıxış edən Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə dövrümüzün ağır bəlasına çevrilən narkomaniyanın zərərlərindən, ölkəmizdə narkomanlığa qarşı aparılan mübarizə tədbirlərindən danışıb, tamaşanı ərsəyə gətirən kollektivə uğurlar arzulayıb.

# "Sədaqətim şərəfimdir"

## "Azərbaycan Bayrağı" ordenli şəhidin xatirəsi anılıb

İmişlidə rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsinin şəhid giziri Əli Quliyevin xatirəsinə həsr olunmuş "Sədaqətim şərəfimdir" adlı tədbir keçirilib.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev Əli Quliyevin ömür yolundan danışıb. Qeyd olunub ki, ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş tədbirlər, çəkilən filmlər, yazılan əsərlər onların adlarının əbədiləşdirilməsinə xidmət edir.

Sonra Əli Quliyevə həsr edilmiş videoçarx nümayiş olunub.

Şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.




Sonda ədəbi-bədii kompozisiya nümayiş etdirilib, vətənpərvərlik mövzulu mahnılar səsləndirilib.

Əli Quliyev 1984-cü il sentyabrın 9-da İmişli rayonunun Otuziki kəndində anadan olub. Aprel döyüşlərinin iştirakçısı olan qəhrəman 2020-ci il Vətən müharibəsində də ön sırada yerini alıb. O, Murovdağ, Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində döyüşlərdə şücaəti ilə seçilib. Oktyabrın 27-də Xocavənd rayonu ərazisində şəhidlik zirvəsinə ucalıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", Cəbrayılın və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

# Qəbələ qoruğunda arxeoloji qazıntılar

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Qəbələ arxeoloji ekspedisiyasının tarix elmləri doktoru, professor Qafar Cəbiyevin rəhbərliyi ilə Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun Qala ərazisində apardığı arxeoloji qazıntı işləri başa çatıb. Bir ay davam edən tədqiqatların məqsədi əvvəlki illərdə tədqiqinə başlanılmış IX qazıntı sahəsində şəhərin daha erkən dövrlərə aid alt yaşayış qatlarını öyrənmək olub.



Tədqiqatların yekunu olaraq Qəbələ Arxeoloji Mərkəzin sərgi salonunda Qəbələ (Qala dəstəsi) arxeoloji ekspedisiyasının üzvləri və Qəbələ qoruğu əməkdaşlarının iştirakı ilə toplantı keçirilib.

Q.Cəbiyev bildirib ki, tədqiqatların gedişində Orta əsr şəhər infrastrukturu üçün səciyyəvi olan çoxsaylı tikinti və memarlıq elementləri, yaşayış binaları, küçə və meydanların qalıqları aşkarlanaraq öyrənilib. Axtarışlar nəticəsində şəhərin təsərrüfathəyatı və əhalinin məişətindən xəbər verən çoxsaylı artefaktlar üzə çıxıb. Onların böyük əksəriyyəti Qəbələ sənətkarlarının dəmir, şüşə və keramikadan istehsal etdiyi nümunələrdir. Bu tapıntılar həm də Qəbələ ustalarının sənətkarlıq səviyyəsindən xəbər verir.

Yeni əldə olunan maddi-mədəniyyət nümunələri Qəbələ qoruğuna təhvil verilib.

# "Bir bahar günü" sənədli filmi təqdim olunub

Ağdam Muğam Mərkəzində (Quzanlı qəsəbəsi) Birinci Qarabağ müharibəsi şəhidi Asif Məmmədovun xatirəsinə həsr olunmuş "Bir bahar günü" adlı sənədli filmin və eyniadlı kitabın təqdimatı keçirilib.




Şəhid ailələri, qazilər və rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxış edərək Asif Məmmədovun döyüş yolundan, şəhid ailələrinə, qazilərə göstərilən dövlət qayğısından danışıb.

Şəhidin oğlu Canqar Məmmədov filmin və kitabın ərsəyə gəlməsində əməyi olanlara, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Çıxışlardan sonra film nümayiş olunub. Film "Vətən eşqi" layihəsinin rəhbəri, yazıçı Atlas Xanlarqızının təşkilatçılığı ilə lentə alınıb.

**Nurəddin**

# Doğma yurda köç davam edir

## Laçın şəhərinə daha 20, Ağalı kəndinə isə 27 ailə qayıdıb

Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Oktyabrın 30-da növbəti köç karvanı ilə Laçına çatan ailələrə evlərinin açarları təqdim olunub.

Laçın şəhəri daha 20 ailəyə (70 nəfər) qucaq açıb. 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələrə evlərinin açarları təqdim olunub. Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin və "Bakı Abadlıq Xidməti" MMC-nin əməkdaşları iştirak ediblər.



Ailələr sevinc hissi ilə evlərinin açarlarını təhvil alıblar.

Bununla da Laçın şəhərində 315 ailənin (1205 nəfər) daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, Laçın şəhərinə sakinlərin köçü avqust ayında başlayıb.

Zəngilan rayonunun yenidən salınmış Bununla da indiyədək Ağalı kənddə daimi məskunlaşdırılan ailələrin sayı 175-ə (871 nəfərə) çatacaq. Kəndə köçürülmə davam etdiriləcək.kəndi də sakinlərinin yeni dəstəsini qəbul edib. Oktyabrın 28-da Abşeron rayonunun Masazır kəndindən Ağalı kəndinə növbəti köç karvanı yola salınıb.

İndiyədək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 25 ailə (127 nəfər) bundan sonra doğma yurdda yaşayacaq. Bununla da Ağalı kəndində daimi məskunlaşdırılan ailələrin sayı 175-ə (871 nəfərə) çatacaq. Kəndə köçürülmə davam edəcək.

# Azad edilmiş ərazilərdə 7 şəhərin baş planları hazırlanır

Qarabağ iqtisadi rayonunda daha 4 şəhərin yeni baş planları üzərində işlər başlanıb. Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə 7 şəhərin baş planları üzərində iş gedir.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bunu oktyabrın 31-də İstanbulda keçirilən Dünya Məskunlaşma Günü ilə bağlı tədbirdə çıxışı zamanı bildirib.

O qeyd edib ki, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində otuz ilə yaxın işğal altında qalmış ərazilərin azad edilməsi daha işıqlı sabaha sarsılmaz sadiqliyimizin parlaq bəyanıdır. Hazırda işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işləri görülür.

Komitə sədri bildirib ki, ümumilikdə ölkə üzrə şəhərsalma baxımından işlər Azərbaycanın 79 şəhərini və 4000-dən çox qəsəbə və kəndini əhatə edir. Son 15 il ərzində 68 şəhər üçün yeni baş planlar hazırlamışıq. Başqa sözlə, şəhərlərimizin demək olar ki, 90%-i üçün artıq yeni müasir baş planlar hazırlanıb.

# Xankəndidən məcburi köçkün düşmüş azərbaycanlılarla görüş

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Xankəndi şəhərindən və Kərkicahan qəsəbəsindən məcburi köçkün düşmüş azərbaycanlıların bir qrupu ilə görüşüb.

Dövlət Komitəsindən verilən xəbərə görə, Gəncə şəhərində keçirilən görüşdə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımızın erməni işğalından azad olunduğu, o cümlədən bütün Qarabağ ərazisində suverenliyimizin bərpa edildiyi qürur hiss ilə vurğulanıb.

İşğaldan azad olunmuş ərazilərin bərpası, yenidən qurulması istiqamətində irimiqyaslı layihələrin həyata keçirildiyi, məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə geri qayıdışının təmin edilməsi üçün zəruri tədbirlərin icra edildiyi bildirilib. Xankəndidən məcburi köçkün düşmüş soydaşlarımızın da tezliklə doğma yurdlarına qayıdacağı, Böyük Qayıdış çərçivəsində həyata keçirilən tədbirlərin onları da əhatə edəcəyi diqqətə çatdırılıb.

Xankəndiyə qayıtmağa, yenidən tarixi yurd yerlərində yaşamağa hazır olduqlarını deyən sakinlər işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycanın dövlət suverenliyinin bərpa edilməsinə görə dövlətimizin başçısına və rəşadətli silahlı qüvvələrimizin mənsublarına minnətdarlıq bildirib, xalqımızın haqq işi uğrunda canını qurban verən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyiblər.

Görüşdə Xankəndidən olan məcburi köçkün icmalarının nümayəndələri, ziyalılar, ictimai fəallar iştirak edib, qayıdışa hazırlıq məsələlərinə dair rəy və təkliflərini səsləndiriblər.

# “Paytaxtımızın mədəni həyatına əlamətdar məkan əlavə olunacaq”

## Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməli qoyulub

Xəbər verdiyimiz kimi, oktyabrın 27-də Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması mərasimi keçirilib. Azərbaycanın Baş naziri Əli Əsədov və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mərasimdə iştirak ediblər.




Mərasimdə çıxış edən Əli Əsədov Azərbaycan və gürcü xalqlarının əsrlər boyu dostluq, mehriban qonşuluq, sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını şərtləndirən əsas amilin tarixi köklərə söykənən mədəni əlaqələr olduğunu vurğulayıb. Bildirib ki, həm Azərbaycanda, həm də Gürcüstanda tarixən xalqlarımızın milli-mənəvi dəyərlərinə, mədəniyyətinə, dilinə, dininə, incəsənətinə, ədəbiyyatına böyük hörmət və xüsusi rəğbət bəslənilib. Azərbaycanın Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh kimi ədəbiyyat xadimləri Gürcüstanda yaşayıb-yaratmış, əbədiyyətə qovuşmuşlar. Qeyd olunub ki, XIX əsrin 70-ci illərində Tiflisdə peşəkar Azərbaycan teatrının fəaliyyətə başlaması da xalqlarımız arasında mədəni əlaqələrin daha bir göstəricisidir.

“Teatrın uzunmüddətli fəaliyyəti dövründə gürcü, Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin ölməz əsərləri böyük uğurla səhnələşdirilib. Bu gün Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adını daşıyan Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrına müasir tərzdə yeni nəfəs verilməsi tarixi hadisədir. Teatrın yeni binasının Tbilisi şəhərinin önəmli gözəl guşəsində yerləşməsi ilə bağlı qərarı çox yüksək qiymətləndiririk”, – deyə o vurğulayıb.

Baş nazir Əli Əsədov diqqətə çatdırıb ki, Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə Gürcüstana və gürcü xalqına böyük hörmət bəsləmiş, xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Dəfələrlə Gürcüstanda səfərdə olmuş Heydər Əliyevin Gürcüstanın ovaxtkı rəhbəri mərhum Eduard Şevardnadze ilə qarşılıqlı etimada əsaslanan möhkəm dostluq münasibətlərini hamımız yaxşı xatırlayırıq. Məhz onların liderliyi sayəsində ölkələrimizin siyasi, iqtisadi, mədəni-humanitar və bütün digər sahələrdə münasibətlərinin inkişafının möhkəm təməlləri qoyulmuşdur. Hər iki liderin siyasi karyerası unikallığı ilə seçilirdi və oxşar tarixi hadisələrlə yadda qalmışdır. Belə ki, onlar ikinci dəfə öz xalqlarının tələbi ilə artıq müstəqil dövlətin rəhbəri kimi siyasi fəaliyyətlərini davam etdirmişlər. Ölkələrinə rəhbərlik dövründə digər sahələrlə bərabər onlar öz xalqlarının milli-mənəvi dəyərlərinə, dilinə, dininə, mədəniyyətinə, incəsənətinə, musiqisinə xüsusi diqqət, qayğı və həssaslıqla yanaşmış, bu irsin qorunması və inkişaf etdirilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Onu da xüsusi qeyd edim ki, Heydər Əliyev gürcü incəsənətinin, ədəbiyyatının, musiqisinin, kinosunun böyük pərəstişkarı idi”.

Bu mehriban münasibətlərin iki ölkənin rəhbərliyi tərəfindən davam etdirildiyini deyən Əli Əsədov ümidvar olduğunu bildirib ki, yeni binasının təməli qoyulan teatrın peşəkar kollektivi də burada yaradılacaq gözəl şəraitdən layiqincə istifadə edəcək, yeni layihələrlə və tamaşalarla Tbilisinin mədəni həyatında fəal rol oynayacaq, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verəcək: “Əminəm ki, bu teatr mədəniyyət və incəsənətsevərlərə layiqli hədiyyə olmaqla yanaşı, həm də tarixi, qədimliyi və müasirliyi özündə mükəmməl şəkildə sintez edən Tbilisi şəhərinin görkəminə xüsusi gözəllik verəcək və Gürcüstan paytaxtının mədəni ocağına çevriləcək. Əlamətdar haldır ki, Heydər Əliyevin adını daşıyan bu mədəniyyət ocağının yeni binasının təməlqoyması məhz cari ilə – Azərbaycan xalqının Ümummilli liderinin anadan olmasının 100-cü ildönümünə təsadüf edir...”.

Azərbaycanda da Gürcüstanın görkəmli şəxsiyyətlərinin xatirəsinə böyük hörmət və ehtiramla yanaşıldığını qeyd edən Baş nazir Əli Əsədov bu günlərdə Gəncədə görkəmli gürcü şairi Nikoloz Barataşvilinin bir zamanlar yaşayıb-yaratdığı və çalışdığı binanın önünə xatirə lövhəsinin vurulduğunu, Qax rayonunda fəaliyyət göstərən Gürcü Dövlət Dram Teatrına böyük gürcü ədibi İlya Çavçavadzenin adının verildiyini xatırladıb.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Gürcüstanda Azərbaycan teatrının böyük tarixi var. “Bu gün hamımız sevinirik ki, teatrın yeni, müasir binasının təməli qoyulacaq və tezliklə daha əzəmətli bina tikiləcək. Bununla da paytaxtımızın mədəni həyatına daha bir əlamətdar məkan əlavə olunacaq. Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlinin qoyulması Gürcüstan və Azərbaycan arasında möhkəm dostluğun və əməkdaşlığın sübutudur”, – deyə o əlavə edib.



Çıxışlardan sonra iki ölkənin Baş naziri tərəfindən binanın təməlinə simvolik kapsul atılıb.

Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmilər iştirak ediblər.



Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının və Bakı Xoreoqrafiya Akademiyasının Heydər Əliyevin 100 illiyinə həsr olunmuş birgə layihəsi – “El bilir ki, sən mənimsən” adlı ədəbi-bədii kompozisiya oktyabrın 27-də təqdim edilib.

# “El bilir ki, sən mənimsən”

## Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edilib

Gənc Tamaşaçılar Teatrında təşkil olunan tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Teatrın aktyorları Xalq şairi Səməd Vurğunun “Azərbaycan” poemasından, eləcə də Heydər Əliyevə həsr olunmuş şeirlərdən parçalar səsləndiriblər.

Bakı Xoreoqrafiya Akademiyasının tələbələri tərəfindən “Küçələrə su səpmişəm”, “Alagöz”, “Yeddi gözəl”, “Ay Laçın”, “Azərbaycan” mahnılarının sədaları altında rəqslər təqdim edilib.

Əməkdar artist Nicat Kazımovun quruluş müəllifi olduğu layihədə teatrın 55 aktyoru, Bakı Xoreoqrafiya Akademiyasının 80-ə yaxın tələbəsi iştirak edib.

Ədəbi-bədii kompozisiyada Üzeyir Hacıbəylinin, Hacı Xanməmədovun, Eldar Mansurovun bəstələrindən də istifadə olunub.

# Rusiyalı gənc teatrşünas Akademik Musiqili Teatrın qonağı olub

Belarus Respublikasında keçirilən “Belaya veja – 2023” Beynəlxalq Teatr Festivalının münsiflər heyətinin sədri, bir sıra beynəlxalq festivalların kuratoru olan rusiyalı teatrşünas və tənqidçi Alisa Litvinova Azərbaycan Dövlət Akademik Musiqili Teatrın qonağı olub.



Teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin dəvəti ilə Bakıya gələn Alisa Litvinova kollektivlə və repertuardakı tamaşalarla yaxından tanış olub.

Rusiyalı gənc teatrşünas “Lara Martin’s Jazz Club”, “Paris Notr-Dama ithaf”, “Silva”, “Kimdir müqəssir?”, “Psix”, “Anamın kitabı”, “O olmasın, bu olsun”, “Bəxtiyar”, “Sehrli nəğmə”, “Məchul pilləkən” tamaşalarına baxıb, onların müzakirələrində təəssüratını, həmçinin qeyd və təkliflərini bölüşüb, eyni zamanda Rusiya teatr prosesi barədə danışıb.

Akademik Musiqili Teatrın beynəlxalq layihələr üzrə koordinatoru Rəcəb Məmmədov qonağı şəhərin görməli yerləri ilə də tanış edib.

Qeyd edək ki, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı müxtəlif ölkələrdə fəaliyyət göstərən sənət adamları, prodüserlər, teatr tənqidçiləri ilə sıx əlaqə saxlayır, təcrübə mübadiləsi aparır, onları ölkəmizə dəvət edir. Bu əlaqələrin davamı kimi teatrın kollektivi də bir çox beynəlxalq konfrans, festival və müsabiqələrdə iştirak edir.

# Qarabağa həsr olunmuş əsərlərin seçimi aparılıb

Qarabağ Dirçəliş Fondunun (QDF) təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) təşkilati dəstəyi ilə reallaşan layihə çərçivəsində gənc rəssamlar tərəfindən Qarabağın təbiətinə, tarixi abidələrinə, eləcə də işğaldan azad edilən ərazilərdəki bərpa-quruculuq mövzularına həsr olunan rəngkarlıq və heykəltaraşlıq nümunələrinin seçimi aparılıb.



Fonddan bildiriblər ki, 84 tələbənin qatıldığı müsabiqəyə təqdim olunan 232 əsər içərisindən 22 rəngkarlıq və heykəltaraşlıq nümunəsi seçilərək növbəti mərhələyə keçib.

Əsərlərin seçilməsində QDF İdarə heyətinin sədri Rəhman Hacıyev, ADRA-nın rektoru Xalq rəssamı Natiq Əliyev, Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Milli İncəsənət Muzeyinin direktoru Əməkdar incəsənət xadimi Çingiz Fərzəlibəyov, ADRA-nın prorektorları – Xalq rəssamları Səlhab Məmmədov və Fuad Salayev, həmçinin Hacı Mailzadə iştirak ediblər.

Müzakirələrin yekunu olaraq Qarabağla bağlı böyük mənəvi dəyərə malik heykəltaraşlıq və rəngkarlıq nümunələrindən ibarət əsərlərin hazırlanması qərara alınıb. Həmin əsərlərin daha sonra kataloq şəklində nəşr olunması nəzərdə tutulur.

Layihə ilə bağlı yaxın günlərdə ictimaiyyətə geniş məlumat veriləcək.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (74)

### 1997-ci il 30 oktyabr

Prezident Heydər Əliyev Azərbaycan yazıçılarının X qurultayında nitq söyləyib.

*“...Mən çox sevinirəm və xoşbəxtəm ki, ilk dəfə Azərbaycanın yazıçılarının qurultayında 27 il bundan əvvəl nitq söyləmişəm, o qurultayın iştirakçısı olmuşam və ondan sonrakı qurultaylarda da daim iştirak etmişəm, yazıçılarımızla, şairlərimizlə, mədəniyyət xadimləri ilə bir yerdə olmuşam, bu gün də sizinlə bir yerdəyəm. Bunun da səbəbi var. Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur... Ancaq eyni zamanda 1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır.*

*...Bilirsiniz, bu gün ümumiyyətlə müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir... Azərbaycanda şairlərə, yazıçılara qoyulan heykəllər qədər heç bir insana heykəllər qoyulmayıbdır. Bunun özü ədəbiyyata, şairə, şeirə, yazıçıya nə qədər böyük hörmətin olduğunu göstərir. Azərbaycanda heç bir tarixi şəxsiyyətə məqbərə yoxdur, ancaq şairə, yazıçıya var... Mən bu fikirlərlə bir daha bildirmək istəyirəm ki, Azərbaycanda ədəbiyyata, mədəniyyətə daim böyük hörmət olubdur. Bu keçid dövründə, həyatımızın ağır dövründə də hörmət, qayğı var və bundan sonra da olacaqdır... İndiki mövcud şəraitdə də əlimizdə olan imkanlardan istifadə edəcəyik. Burada fondun yaranması haqqında da fikir söyləndi. Mən bunu görüşdə də dedim. Bir neçə ildir belə təkliflər alıram ki, bir fond yaransın – “Heydər Əliyev fondu” – və bu fonddan mədəniyyətin, istedadlı adamların, ədəbiyyatın inkişafına və başqa sahələrə yardım üçün istifadə olunsun. İndi artıq görürəm ki, doğrudan da belə bir fondun yaranması zərurəti gəlib çatıbdır...*

*...Mədəniyyət, ədəbiyyat gərək daim dövlətlə bir yerdə olsun. Bu baxımdan sizə bir neçə fikrimi demək istəyirəm. Keçmiş qurultaylardan fərqli olaraq, görürsünüz ki, mən sizə “hansı mövzuda yazmalısınız, nə cür yazmalısınız” kimi göstərişlər, heç məsləhətlər də vermək istəmirəm. Hansı mövzunu götürürsünüz götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu, çox vacibdir.*

*Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir... Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, Vətəninə, torpağına məhəbbət hissi yaradır.*

*Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət, xalq millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, imperiyaların tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir.*

*...Ədəbiyyatımıza yeni uğurlar arzu edirəm. Heç şübhə etmirəm ki, Azərbaycan ədəbiyyatı XX əsri uğurla sona çatdıracaq və XXI əsrdə dünya, bəşər ədəbiyyatına gözəl nümunələr verəcəkdir...”.*

### 1997-ci il 5 noyabr

Azərbaycan Dövlət Kitabxanasında “Azərbaycan qaçqınları” fotoalbomunun təqdimat mərasimində nitq söyləyib.

### 1997-ci il 6 noyabr

Tofiq İsmayılov adına Uşaq Yaradıcılıq Sarayında əlillərin III Respublika yaradıcılıq sərgi-müsabiqəsinin açılışında çıxış edib.

*“...Bu sərgi, burada nümayiş etdirilən eksponatlar insana çox böyük təsir bağışlayır. Bu əsərləri yaradanlar peşəkar rəssamlar, yaxud peşəkar sənətkarlar deyillər. Ancaq işlər onu təsdiq edir ki, bu əsərlərin hamısı yüksək peşəkar səviyyədədir... Əgər nəzərə alsaq ki, bu əsərlərin müəllifləri bu və ya başqa cəhətdən fiziki çətinlik keçirirlər, fiziki çatışmazlığa məruz qalıblar, onda bu əsərlərin nə qədər qiymətli və bu insanların nə qədər böyük hörmətə layiq olduğu daha da aşkar olur... Bu əsərlər və ümumiyyətlə, sərgi bir daha onu sübut edir ki, insan nə qədər böyük istedada və böyük potensiala malikdir... İradə, öz gücünə inam, öz imkanlarından istifadə etmək üçün çalışqanlıq – bunlar hamısı insanlarda olan daxili potensialı büruzə verir və belə əsərlərin yaranmasına gətirib çıxarır...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Cəmilədən başqa hamı?...




Bu günlərdə Lənkəran Dövlət Dram Teatrı qırğız yazıçı Çingiz Aytmatovun "Cəmilə" tamaşası ilə Bakıda qonaq oldu. Daha doğrusu, səhnə əsərinin ikinci premyerası Bakıda gerçəkləşdi.

Dünyaca məşhur ədibin "Cəmilə" povesti əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru İmran Ali Qurban, bəstəkarı Azər Hacıəsgərli, quruluşçu rəssamı Tərlan Sadıqov, rəssamı Nərgiz Baxşızadə, geyim üzrə rəssamı Gülü Süleymanlı, rejissor assistenti Günay Səlimzadədir.

Rolları Aysel Babazadə (Cəmilə), Teymur Hacızadə (Seyit), Emil Rzayev (Danyar), Aynur Əhmədova (Ana), Buludxan Buludov (Orozmət ağa), Saleh Əzimzadə (Osman), Səyyad Əliyev (Sadiq), Ayşən Əsədova, Məleykə Cəfərova, Günel Abbaszadə, Vəfa Hacızadə (kəndli qızlar), Əlirza Şahbazi və Amil İbrahimli (kəndli oğlanlar) ifa edirlər.

Məlum olduğu kimi, əsər müəllifin doğulub boya-başa çatdığı Talas vadisinin tarix və mədəniyyətini özündə əks etdirir. Eyni zamanda müəllifin müharibəyə, imperializmə qarşı etirazının bədii ifadəsidir.

Cəmilə kəndin gözəl və çılğın qızlarındandır. İpə-sapa yatmayan, sadəlövh təsiri bağışlayan həyatsevər qızcığaz sevib-sevilmədən kəndin köklü ailələrindən birinə gəlin olur. Cəmilə həyat yoldaşı Sadiqi sevməsə də, taleyi ilə razılaşır. Sadiqin anası mərd, xətir-hörmət sayan xanımdır. Sadiqin bir də balaca qardaşı Seyit var. Gənc cütlük təzəcə evlənmişdi ki, müharibə xəbəri aləmi yasa bürüyür. II Dünya müharibəsi bu sadə ailənin də düzənini pozur, Sadiq də cəbhəyə yollanır.

Kəndin, demək olar ki, bütün kişiləri cəbhədədir. Məişətlə yanaşı, kolxoz-sovxozun da bütün yükü qadınların çiyinlərindədir. Artıq savaşın başlamasından üç il keçib. Ümidlər öləziyib, itkilər artıb. Bircə Cəmilənin həyatsevərliyi, uşaq xasiyyəti, çılğın ovqatı onu tərk etməyib... Qaynı balaca Seyitlə zəmilərdəki buğdaları kisələrə yığıb arabalarla daşıyıb vaqonlara yükləyir, cəbhəyə yola salırlar. Beləcə, kişilərin görməli olduqları işləri, uşaqlar, qadınlar icra edirlər.

Müharibədə ayağından yaralanmış Orozmət ağa adlı kişi hər kəsdən gecə-gündüz iş tələb edir. Günlərin birində müharibənin üz-gözündə silinməz iz buraxdığı yaralı, axsaq əsgər onların yanına gəlir. Bütün məsələlər də bundan sonra başlayır.

Qaradinməz Danyar bütün günü işləyir, heç kimə məhəl qoymadan yalnız taxıl daşıyır. Bu etinasızlıq, sözsüz ki, Cəmilənin diqqətini cəlb edir. Gənc qadın ona göz qoyan digər kəndlisi Osmandan imtina eləsə də, meylini Danyara salır. Onlar bir-birlərinə aşiq olurlar. Sözsüz ki, əri cəbhədə olan bir qadın başqa bir kişini sevə bilməz kimi qadağa onları da müşayiət edir və nəhayət, çıxış yolu tapılır. Aşiqlər kənddən qaçırlar. Bu zaman Sadiq cəbhədən dönür. Arvadının qaçma xəbərinə əsib-coşsa da, Cəmilədən daha gözəl biri ilə evlənəcəyinə əmindir. Bu arxayınlıq ilə acığını qardaşı Seyitdən, daha doğrusu, onun çəkdiyi rəsmdən çıxır. Axı balaca Seyitin ən böyük arzusu rəssam olmaq idi. Cəmilə çox istədiyi tək sirdaşı Seyitə güvənir və onu böyük rəssam olacağına inandırırdı. Elə bu həvəskar rəssam da onları, əslində, Cəmiləni yaddaşına yazmaq üçün gizlicə ikisinin rəsmini çəkmişdi... Cəmilə bilmədən həm də Seyitin ilk məhəbbətidir. Məhz bu nisgilli məhəbbət Seyiti rəssam edir.



İndi də keçən bu mətləblərin rejissor həllinə. Öncə deyim ki, bu tamaşa rejissorun debütü olduğundan çox da dərinə getməyəcək, onu həvəsdən salmayacam. Ən azı ona görə ki, məhz ilk cəhdindən "Cəmilə" kimi dağınıq hiss və düşüncələrin səhnə ifadəsinə cəhd edib.

Tamaşanın səhnə tərtibatı yaxşı idi. Sadə mexanizmlə səhnədə hərəkət edən at arabası ümumi planda dolğunluq yaradırdı və bunu alqışlamaq olar. Di gəl ki, biz tamaşada temp üçün dəfələrlə irəli diyirlənən çarxları, arabada at mahmızlayırmış kimi irəli-geri dartınan oyunçuları görsək də, musiqi tərtibatçıları su şırıltısı, qatar taqqıltısı, göy gurultusu, külək vıyıltısı, yağış şırıltısı effekti yaradan səslər çıxarsalar da, bircə tamaşa boyu dəfələrlə "mənim atlarım", "sənin kəhərlərin", "yorğun köhlənlər"in nə kişnərtisini, nə də fınxırtısını eşitdik.

Yağış demişkən, heyətin məxsusi təqdim etdiyi bu leysan üzərindən quru keçməyək. Ən azı, səhnədə sel gedirdi deyə. Bəli, təbii yağış effektinə çalışıldı. Məqam-məqam aktyorlara narahatlıq yaratsa da, yaxşı cəhd idi.

Tamaşa boyu gözümüzü-könlümüzü işğal edən bir məqamı qeyd etməyə bilmərəm. Maraqlıdır, uzaq qırğız kəndində at çapıb, zəmi biçib, belinə tay-tay buğda şələyən qız niyə elə geyinsin ki? Nə bilim, yəqin, elə dəb imiş. O kənddə bilmirəm, amma səhnədə Cəmiləmiz əməllicə əziyyət çəkdi...

Tərtibatda sadəliyə, müharibə ovqatına köklənən heyət nədənsə musiqidə farsı qırğıza, qatıb-qarışdırmışdı. Doğrudur, tamaşa üzərində bəstəkar işi var. Bu, dövlət sifarişi xaric az-az tamaşalarda rast gəldiyimiz haldır və məhz buna görə lənkəranlı teatr təmsilçilərini alqışlayıram. Özü də son illər kino və teatr musiqisi sahəsində öz dəst-xətti ilə seçilən A.Hacıəsgərlinin peşəkarlığına sözüm yoxdur. Amma bu tamaşada ya zəlzələdən, ya vəlvələdən, fars ritmləri, o musiqiyə xas milizmalar yerində deyildi.

Aktyor oyunu barədə də bir neçə kəlmə. Tamaşanın ümumi ansamblı və ifadə meyarları üzərində iş var idi. Di gəl, Ana obrazı Aynur xanım üçün deyildi. Potensialı və istedadı, səhnədə duruşu ilə kifayət qədər bəyəndiyim aktrisa burada heç cür özü ola bilmədi. Səsindən oyununa bütün məqamlarda özü də bizə qoşulub az qala "Mən bu tamaşada niyə varam?" sualına cavab axtarırdı. Bu sözləri Cəmilə rolunun ifaçısının da ayağına yazmaq olar. Səhnədə cazibədar görünmək məsələni həll eləmir...

Lənkəran teatrının Sadiqi, Danyalı (aktyor bu obrazda özünü kəşf etdi, məncə), Seyiti, komandiri, Osmanı baxımlı oyun sərgilədilər. Yeniyetmə oğlanı ifa edən aktyor qəhrəmanı ilə özü arasında maraqlı bir dialoq yaratmışdı və biz onun əyninə biçilən obrazını çox təbii qarşıladıq.

Tamaşa ümumilikdə pis alınmamışdı. Sadəcə, ayrı-ayrılıqda olan iş bir arada vahid nizama otura bilmədi. Elə bil nə isə çatmırdı və o çatışmayan "nə isə" rejissordan başqa hər kəsə məlum idi...

**Həmidə Nizamiqızı**

# Yazıçı-publisist Rafiq Savalan vəfat edib



Nasir, publisist, tərcüməçi, Əməkdar jurnalist Rafiq Savalan oktyabrın 29-da, ömrünün 82-ci ilində vəfat edib.

Rafiq İmanqulu oğlu Ağayev (Rafiq Savalan) 1940-cı il dekabrın 1-də Bakı şəhərində anadan olub. Orta təhsilini Neftçala rayonunda başa vurub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində təhsil alıb.

1966-cı ildən taleyini Azərbaycan Televiziya və Radiosuna bağlayıb. Radionun təbliğat və xəbərlər baş redaksiyasında müxbir, kiçik redaktor, böyük redaktor, siyasi icmalçı, radionun uşaqlar üçün proqram baş redaksiyasının baş redaktoru vəzifələrində çalışıb. O, hər bazar günü uşaqların maraqla dinlədikləri "Biləyən" radio verilişinin yaradıcısı, müəlliflərindən biri və redaktoru olub.

1960-cı ildən ədəbi fəaliyyətlə də məşğul olub. Hekayə, felyeton, publisist yazıları və tərcümələri dövri mətbuatda müntəzəm çap olunub, efirdə səslənib.

R.Savalan 1976-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

Allah rəhmət eləsin.

# Şair, aşıq Ağacan Cabbarlı haqqında kitab çapdan çıxıb




Azərbaycan Aşıqlar Birliyində (AAB) hazırlanmış daha bir kitab işıq üzü görüb.

AAB-nin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun müəllifi olduğu "Şair Ağacan: ömür yolu, mühiti və sənəti" adlı kitab əslən Qərbi Azərbaycandan olub, sonradan ömrünün çox hissəsini Borçalıda yaşayan, ötən əsrin 30-40-cı illərində sovet repressiya maşınının qurbanlarından olan Ağacan Cabbarlının həyat və yaradıcılığına həsr olunub.

Ağacan Cabbar oğlu Cabbarlı 1876-cı ildə Qərbi Azərbaycanın Şorayıl mahalındakı Qarakilsə (Qaraisə) kəndində anadan olub. Erməni zülmündən yaxa qurtarmaq üçün sonradan Borçalıda (Gürcüstanın Marneuli rayonundakı Qaçağan kəndində) məskunlaşıb, ömrünün çox hissəsini burada yaşayıb-yaradıb. Borçalıda aşıq sənətinin inkişafında böyük xidmətləri olan Ağacan Cabbar oğlu Cabbarlı 1943-cü ildə sovet hökuməti əleyhinə təbliğatda günahlandırılaraq həbs olunub, yalnız Səməd Vurğunun köməkliyi ilə həbsdən yaxasını qurtara bilib. 1949-cu ildə ikinci dəfə həbs olunub və Sibirə sürgün edilib. 1951-ci ildə Sibirdə sürgündə ikən vəfat edən Şair Ağacanın nəşinin qalıqlarını 1956-cı ildə bəraət aldıqdan sonra Borçalıya qayıdan həyat yoldaşı məzardan çıxararaq Vətənə gətirib və burada yenidən torpağa tapşırılıb.

Şair Ağacanın yaradıcılığı indiyədək əsaslı şəkildə tədqiq olunmasa da, saz-söz ustadının şeirləri və yaratdığı dastanlar bu gün də aşıqların repertuarında mühüm yer tutur.

Kitabın elmi məsləhətçisi AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, elmi redaktoru ADPU-nun Ədəbiyyat kafedrasının müdiri dosent Razim Məmmədli, rəyçi folklorşünas, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədlidir.

# Vətəndən uzaqda Vətənlə olmaq...

Vətənə xidmət etmək üçün doğulduğun məmləkətdə yaşamaq əsas şərt deyil. Xalqını, ölkəsini düşünən, onun inkişafı üçün çalışan insan elə vətənindən uzaqlarda da gərəkli ola bilir... Tarixçi alim, şərqşünas, ictimai xadim, tanınmış ədib, Azərbaycan Yazıçılar Birliyinin üzvü Əbdül Hüseynov da belə soydaşlarımızdan olub. Ömrünün böyük hissəsini Azərbaycandan kənarda yaşasa da, daim öz ana yurdu ilə nəfəs alıb, onun qayğılarını düşünüb.

Əbdül Ənbiyə oğlu Hüseynov 25 oktyabr 1925-ci ildə Bakının Əmircan kəndində dünyaya göz açıb. Məktəbli ikən II Dünya müharibəsi başlayır. Könüllü olaraq müharibəyə gedir. Qayıtdıqdan sonra bir müddət Rusiyada "Krasnovodsk fəhləsi" qəzetinin baş redaktor müavini vəzifəsində çalışır. 1956-cı ildə Aşqabad Dövlət Universitetinin Hüquq-tarix fakültəsini bitirir. 1958-ci ilə qədər Türkmənistan mədəniyyət nazirinin müavini vəzifəsində işləyir.

Aşqabadda keçirilən ittifaq miqyaslı bir tədbirdə Moskvadan gələn Nelya adlı xanımla tanış olur. Qız onu Moskvaya dəvət edir. Nelyanın anası SSRİ təhsil nazirinin müavini, atası isə diplomat idi. O, 1960-cı ildə Moskvaya köçür.

Dövlət Kino Komitəsinin işçisi kimi uzun illər Türkiyədə, İran və Monqolustanda işləyir. İranda olarkən böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarı ziyarət edir, onunla dostluq əlaqəsi yaradır.

10 ildən çox SSRİ Kinematoqrafiya İttifaqı Tehran nümayəndəliyinin rəhbəri kimi fəaliyyət göstərdiyi müddətdə İran şahının xanımı Fərəh Pəhləvi ilə səmimi münasibət qurur. Tehranda keçirilən rəsmi və mədəni-kütləvi tədbirlərə qatılır. SSRİ və dünya kinostudiyalarının istehsalı olan yeni filmləri şahın ailəsinə hədiyyə edir...

Ə.Hüseynov on ildən artıq Türkiyədə çalışıb. Həmin dövrdə Azərbaycan kinosunun ilk dəfə beynəlxalq kinofestivala çıxmasına kömək edib. Onun Türkiyə dövrü çox məhsuldar olub. Apardığı tədqiqatlar əsasında "Türkiyədə həmkarlar ittifaqları", "Mətbuat vasitələri Türkiyənin ictimai-siyasi həyatında", "Türk kinosu: tarix və müasir problemlər", "Həyat və qəhrəmanlıq", "Möhsün Ərtoğrul teatrda və kinoda", "Yılmaz Güney" kimi əsərlərini qələmə alıb.



Yazıçı Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması sahəsində də xidmətlər göstərib. Yazıçı-publisist Mehman Fərzullayev araşdırmasında yazır ki, Ə.Hüseynovun tərtib və nəşr etdirdiyi 560 səhifəlik "Azərbaycanlılar Rusiya tarixində" kitabında Rusiyanın dövlətçilik tarixində xidmətləri olan 550-dən artıq azərbaycanlıdan söhbət açılır... O, 1992-ci ildə hərbi operator Seyidağa Mövsümovun lentə aldığı 45 dəqiqəlik "Xocalı faciəsi" sənədli filminin Azərbaycanın Rusiyadakı Səfirliyində, eləcə də bir sıra ölkələrdə nümayiş etdirilməsinə nail olub.

Rusiyada yaşadığı illər ərzində ədəbiyyat və mədəniyyətimizi bu ölkədə layiqincə təmsil və təbliğ edən yazıçı Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin, "Ocaq" Azərbaycan Mədəniyyəti Cəmiyyətinin, Ümumrusiya Azərbaycanlıları Konqresi və başqa təşkilatların işində fəal rol oynayıb. Ömrünün sonunadək Moskva Dövlət Universitetində və Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının (UİHİMŞ) ali məktəbində pedaqoji fəaliyyət göstərib. O, həmçinin SSRİ dağıldığı ərəfədə Rusiyada Azərbaycan diasporunun yaranmasında aktiv rol oynayıb.

Bədii yaradıcılıqla da məşğul olan Ə.Hüseynov xaricdə çalışdığı illərdə Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı araşdırmalar aparıb və zəngin material toplayıb. Sonralar bu materiallar əsasında rus dilində "Mustafanın xəzinəsi", "Arzamaslı qadın", "Sələhəddin", "Taxta çıxan əkinçi", "Üsyankar Xaqani" və başqa nəsr əsərlərini qələmə alır. Daha sonra müəllif "Bəhram Gurun məhəbbəti və kədəri", "Müdrik adamın arzuları", "Məhəbbət haqqında üç dastan", "Müharibənin sədası" kimi roman və povestlər yazır. Ədib Birinci Qarabağ müharibəsi zamanı erməni faşistləri tərəfindən 1992-ci ilin 26 fevralında Xocalı şəhərində dinc əhaliyə qarşı törətdiyi soyqırımı haqqında "Xocalı fəryadı" adlı romanın da müəllifidir. Rus dilində yazıb-yaradan Ə.Hüseynovun əsərləri Azərbaycan, ingilis, ispan, alman, fransız və ərəb dillərinə tərcümə edilib. Ölkəmizlə yanaşı, İran, Türkiyə, Kanada, Bolqarıstan və Rusiyada çap olunub. Ssenariləri əsasında 7 film çəkilib.

Tanınmış yazıçı, pedaqoq, ictimai xadim Əbdül Hüseynov 14 may 2017-ci ildə, 92 yaşında Moskvada vəfat edib, orada torpağa tapşırılıb.

**Savalan Fərəcov**

# Vətən Müharibəsi Qəhrəmanına həsr edilmiş klipin təqdimatı

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə oktyabrın 27-də Beynəlxalq Muğam Mərkəzində Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin xatirəsinə həsr olunmuş "Vətən qəhrəmanı" adlı mahnı və klipin təqdimatı keçirildi.




Tədbirdə millət vəkilləri, Kəlbəcər və Xocavəndin icra başçıları, şəhid ailələrinin üzvləri və qazilər, ictimaiyyət nümayəndələri, şəhidin döyüş yoldaşları iştirak edirdilər.

Çıxış edənlər Vətən yolunda canından keçən qəhrəman əsgər və zabitlərimizin həyat yolunun gənc nəsil üçün vətənpərvərlik nümunəsi olduğunu bildirdilər.

Qəhrəmanın həyat yoldaşı Vüsalə Əliyeva qeyd etdi ki, Anar Əliyevin şəhadətindən sonra bütün arzuları onun adının yaşadılması ilə bağlıdır: "Bu cür layihələrin hazırlanması qəhrəmanlarımızı gənc nəslə tanıtmağa xidmət edir. Əminəm ki, Anar Əliyev qəhrəmanlığı ilə obraz olaraq hər kəsin qəlbində yaşayacaq".

Çıxışlardan sonra şəhidin əziz xatirəsinə ithaf olunan mahnıya çəkilmiş klip təqdim olundu.

Mahnının musiqisi pianoçu, bəstəkar, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Hüseynovaya, sözləri Xalq şairi Vahid Əzizə məxsusdur.

K.Hüseynova layihə üzərində iki ay çalışdıqlarını dedi. O, əsərin gənclərin yaddaşında iz qoyacağından əminliyini bildirdi.

Qeyd edək ki, Xalq artisti, opera müğənnisi Samir Cəfərovun ifa etdiyi klipdə Azərbaycanın qəhrəman oğullarının ümumiləşdirilmiş obrazı canlandırılıb.

Şəhid polkovnik-leytenant Anar Vaqif oğlu Əliyev 28 avqust 1980-ci ildə Kəlbəcərin Boyaqlı kəndində anadan olub. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı zabiti kim 23 il Vətənə xidmət edib. Vətən müharibəsi zamanı oktyabrın 21-də Xocavəndin Tuğ kəndi uğrunda döyüşdə şəhid olub.

Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda", Şuşa, Füzuli və Xocavəndin azad olunmasına görə medallarına layiq görülüb.

**Lalə Azəri**

# Apellyasiya Komissiyasının iclaslarında müraciətlərə baxılıb

Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin nəticəsindən razı olmayan namizədlərin şikayətlərinə baxılması məqsədilə yaradılmış Apellyasiya Komissiyasının iclasları keçirilib.

19-26 oktyabr tarixlərində nazir müavini Səadət Yusifovanın sədrliyi, komissiyanın üzvləri – nazirin müşavirləri Cahangir Səlimxanov və Oleq Əmirbəyov, İnsan kapitalının idarə edilməsi şöbəsinin müdiri Şahin Həsənov, Hüquq şöbəsinin müdiri Gülər Mikayılova, Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri Elçin Nəcəfov və Elm, təhsil və gənclərlə iş sektorunun müdiri Lalə Kərimovanın iştirakı ilə 47 namizədin nəticələrinə yenidən baxılıb.

Müzakirələr zamanı namizədlərin müsahibə ilə bağlı fikirləri dinlənilib, müsahibələrin videoçəkilişinə və sənədlərinə əsasən komissiya üzvlərinin hazırladığı rəylər müzakirə olunub. Sonda komissiya üzvlərinin səsverməsinə əsasən müvafiq qərarlar qəbul edilib.

Qərarlara əsasən, 9 nəfərin – Şahbazlı Tamira Arzu qızı (30 bal), Əlləzova Sevinc Nadir qızı (25 bal), Abduləzimova Nazdı Azad qızı (21 bal), Eyvazova Ülkər Coşqun qızı (21 bal), Səfərova Vüsalə Əyyub qızı (21 bal), Qurbanova Aynur Yunis qızı (21 bal), İsgəndərov Fərid Rizvan oğlu (21 bal), Eynullayeva Turan Nadir qızı (21 bal) və Möyləyeva Gülsüm Vüsal qızının (21 bal) əvvəl keçirilmiş müsahibə nəticələrinə dair müraciətləri təmin edilib.

38 nəfərin müsahibə nəticəsi isə qüvvədə saxlanılıb.

# Bakıdakı Rus Evində Arif Məlikovun 90 illiyinə həsr olunmuş konsert

Bakıdakı Rus Evində görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Arif Məlikovun (1933-2019) anadan olmasının 90 illiyinə həsr olunmuş konsert keçirilib. Rusiya İnformasiya və Mədəniyyət Mərkəzindən (RİMM) bildirilib ki, tədbir Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) ilə birgə təşkil edilib.



Bakıdakı Rus Evinin nümayəndəsi Dmitri Yeqorov tədbirə toplaşanları salamlayıb.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi, BMA-nın professoru Zemfira Qafarova çıxışında Arif Məlikovun musiqi sənətimizin inkişafındakı tarixi xidmətlərini qeyd edib.

Aytən İbrahimovanın bəstəkarın yaradıcılığına həsr olunmuş tədqiqat işi barədə məlumat verilib.

Çıxışlarda Arif Məlikovun istedadının çoxşaxəliliyi, o cümlədən təsviri sənət və poeziya sahəsindəki yaradıcılığının maraqlı faktları, eləcə də bəstəkarlıq yaradıcılığındakı yenilikləri və özünəməxsusluğu haqqında söz açılıb. Ümummilli lider Heydər Əliyevin musiqiçinin həyatında rolu, onların səmimi dostluq münasibətləri vurğulanıb. Diqqətə çatdırılıb ki, Arif Məlikov simfoniyalarından birini Heydər Əliyevə həsr edib.

Konsert proqramında Əməkdar artist Aleksey Miltıx, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının solisti Yuliya Heydərova, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının artisti Renata Əbubəkirova, BMA-nın müəllimi Nərgiz Kəngərli, BMA-nın məktəb-studiyasının müəllimləri Ofeliya Axundova və Nuranə Zeynalova, beynəlxalq müsabiqələr laureatı Emil Malıgin, eləcə də Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin tələbəsi Rəna Mirağayeva və konsertmeyster Sevinc Kərimovanın ifaları təqdim olunub.

# Raziliya Murzakova: "Məhmənəbanu ilə bənzərliyim var..."

Bu və ya digər personajın mükəmməl şəkildə canlandırılması artistin öz sənətinə, əsərin müəllif(lər)inə ən böyük sevgi və ehtiramının ifadəsidir. Xüsusən əgər söhbət Məhmənəbanu kimi mürəkkəb xarakterə, təzadlı emosiyalara malik bir obrazdan gedirsə.

Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Arif Məlikovun böyük türk şairi və dramaturqu Nazim Hikmətin "Fərhad və Şirin" dramı əsasında yazdığı "Məhəbbət əfsanəsi" baleti 60 ildən çoxdur dünya səhnələrini bəzəyir. Baletin ilk tamaşası 1961-ci il martın 23-də Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrı) keçirilib. Tamaşanın quruluşçu baletmeysteri Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru maestro Niyazi olub. 1962-ci ilin iyulunda isə əsərin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində premyerası keçirilib.

Uzun illərdən sonra müasir balet sənətinin şedevrlərindən biri bu ilin 18-19 sentyabr tarixlərində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda, Heydər Əliyev Sarayında oynanıldı. Arif Məlikovun əsrarəngiz musiqisini Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğunda Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ifa etdi. Ayın 18-də oynanılan tamaşada Məhmənəbanu partiyasını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, Prezident mükafatçısı Ayan Eyvazova, Fərhad rolunu Rusiya Böyük Teatrının premyeri Denis Rodkin, Şirini həmin teatrın aparıcı solisti Mariya Vinoqradova ifa ediblər.

Ertəsi gün izləmək imkanım olduğu tamaşada isə Fərhad partiyasında "Astana Balet"in aparıcı solisti İlya Manayenkov, Şirin partiyasında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti Dinarə Məmmədova, Məhmənəbanu obrazında Başqırdıstan Opera və Balet Teatrının prima-balerinası Raziliya Murzakova səhnəyə çıxmışdı.

Səhnə əsərinin ilk dəqiqələrindən Raziliya Murzakova personajın enerjisini tamaşaçıya ötürmək məharəti ilə xüsusilə yadda qaldı. Biz balerinanı həm ədalətli hökmdar qadın, həm güvənli bir bacı, həm də sevən bir qadın olaraq bütün bu fərqli hallarda tamamilə üzvi, harmonik ifadəlilikdə görürük. Balerinanın bədəninin imkanlarına bələdliliyi, musiqini duymaq qabiliyyəti və personajının səciyyəsinə varmaq bacarığı son dərəcə güclüdür. Ölümcül xəstəliyə düçar olan bacısı Şirinin sağalmasının yeganə əlacı kimi öz gözəlliyini düşünmədən fəda etməsi, sonra hər iki bacının Fərhada aşiq olması, Fərhadla Şirinin bir-birinə könül verməsi, Məhmənəbanunun qəlbindəki fırtınaların gizli qalması onu olmazın üzüntülərə salır. Məhmənəbanu səhnədə hərəkətsiz oturub, təlxək isə əlindən gələni edir ki, hökmdarının ovqatı yaxşılaşsın. Lakin təbii ki, təlxəyin cəhdləri əbəsdir. Və səhnənin ortasında hərəkətsiz oturmuş Məhmənəbanunun düşüncələri, duyğuları "dil açıb danışır" tamaşaçı sanki onunla həmsöhbətə, sirdaşa çevrilir. Sənətsevərlər üçün bundan gözəl hədiyyəni təsəvvür etmək çətindir. Gəlin, bu hədiyyəni bizə bəxş edən Raziliya Murzakova ilə tanış olaq.



*– Balet sevginizin tarixçəsini danışa bilərsinizmi?*

– 1998-ci ildə Rusiya Federasiyası Başqırdıstan Respublikasının Kuyurqazi rayonunda anadan olmuşam. Mən çox fəal uşaq olduğuma, rəqs etməyi sevdiyimə görə anam məni xoreoqrafiya məktəbinə qoymuşdu. Klassik və xalq rəqslərini öyrənirdim. O məktəbdə müəlliməm Ufaya gedib xoreoqrafiya məktəbinə daxil olmağı məsləhət gördü. Mən məmnuniyyətlə razılaşdım. Anam da təhsilimi davam etdirmək fikrini razılıqla qarşıladı. Beləliklə, R.Nureyev adına Ufa Xoreoqrafiya Məktəbində səkkiz il oxudum. Ora getməzdən əvvəl elə bilirdim ki, təhsilim xalq rəqsləri üzrə olacaq. Balet haqqında təsəvvürüm yox idi o vaxtlar. Amma xoreoqrafiya məktəbində baleti sevdim. Və ən əsası bəxtimə gözəl pedaqoq çıxdı – Lyudmila Vasilyevna Şapkina. 2016-cı ildə təhsilimi başa vurub Başqırdıstan Opera və Balet Teatrında fəaliyyətə başladım. Artıq səkkizinci mövsümdür ki, bu teatrın səhnəsinə çıxıram. Kordebaletdən başlayıb aparıcı və solo partiyalaradək yüksəlmişəm. Hazırda repertuarımda aparıcı partiyalardır. Düzdür, istədiyim qədər deyil, amma düşünürəm ki, hər şey hələ irəlidədir.

*– Ailənizdə rəqslə bağlılığı olan başqa kimsə varmı və ya olubmu?*

– Xeyr, ailəmizdə rəqslə, ümumiyyətlə, incəsənətlə peşəkar səviyyədə bağlı olan yoxdur. Anam yeniyetmə və gənclik yaşlarında rəqslə, vokalla məşğul olub, lakin davam etdirməyib. Başqırd dili və ədəbiyyatı müəllimi peşəsinə yiyələnib və hazırda pedaqoji fəaliyyətini davam etdirir. Amma onun musiqiyə, rəqsə marağı, yaradıcı təbiəti mənə ötürülüb.

*– Məhmənəbanu obrazı ilə yaradıcılıq yolunuzda rastlaşmağınız necə baş verdi?*

– Mən Ufada Opera və Balet Teatrına gəldiyim 2016-cı ildə məhz "Məhəbbət əfsanəsi" baletinin məşqləri gedirdi. Bütün məşqlərdə iştirak etdim. Əsərin xoreoqrafiyasına tamamilə bələd oldum. Amma təbii ki, yeni başlayan balerina olduğum üçün əsas partiya mənə həvalə edilməyib. 2021-ci ildə qazaxıstanlı həmkarlarımız bizim teatra zəng edib bildiriblər ki, "Məhəbbət əfsanəsi" baletinin məşqlərinə başlayıblar və Məhmənəbanu partiyasının ifası üçün namizəd axtarırlar, teatrımızın bu işdə onlara kömək etmək rica istəyiblər. Teatrımızın bədii rəhbəri məndən soruşdu ki, ifa edə bilərəmmi bu partiyanı? Cavab verdim ki, əlbəttə. Belə bir imkandan vaz keçə bilməzdim. Üç gün öz teatrımızda məşq edəndən sonra Astanaya yola düşdüm və Astana Opera və Balet Teatrının səhnəsində qoyulan "Məhəbbət əfsanəsi"ndə Məhmənəbanu rolunda çıxış etdim. İl yarımdan sonra isə bu partiyanı doğma teatrımın səhnəsində ifa etdim.

*– Buna qədər Azərbaycan mədəniyyəti ilə tanışlığınız olmuşdumu? Bu arada azərbaycanlı həmkarlarınızla işbirliyiniz, şəhərimiz haqqındakı təəssüratınızı da eşitmək maraqlı olar...*

– Arif Məlikovun bu əsəri Azərbaycan mədəniyyəti ilə ilk təması idi. Azərbaycanlı həmkarlarımın, xoreoqrafların peşəkarlığı, tərəf-müqabil olmaq mədəniyyəti ən yüksək səviyyədədir. Azərbaycanlıların qonaqpərvərliyini isə vurğulamağa ehtiyac yoxdur. Bakını çox sevdim, Məmnuniyyətlə bir də gələrəm. Məşqlərarası boş vaxtlarımı İçərişəhəri gəzib-dolanmağa sərf edirdim. Özü də naviqator tətbiqindən bilərəkdən istifadə etmədən, azmaqdan ehtiyatlanmadan ürəyinin çağırışının ardınca gedərək İçərişəhəri gəzməkdən doymurdum.

*– Məhmənəbanu kimi mürəkkəb bir obrazı bütün dəqiqliyi və dərinliyi ilə duyub canlandırmağın öhdəsindən gəlməkdə sizə nə kömək etdi?*

– Bu balet və Məhmənəbanu obrazı ən çox sevdiyim əsər və ən çox ürəyimə yatan obrazdır. "Məhəbbət əfsanəsi" başqa baletlərdən fərqli olaraq çox dəqiq, konkret, aydın quruluşa malikdir, mizan – səhnələrdən azaddır. Bu cəhət məni çox cəlb edir. Və bir də ola bilər ki, mən Məhmənəbanu kimi güclü olmaq istərdim. Hətta deyərdim ki, əslində, bənzərliyimiz var. Bunu mənə tamaşaya baxan dost-tanışlarım da deyib. Qeyd ediblər ki, bu obraz mənə çox yaraşır. Məhmənəbanu hökmdardır. Onun içində o qədər çox və müxtəlif emosiya var ki!... Amma hökmdar olduğu üçün emosiyalarının hamısını büruzə verə bilmir. Bununla belə, onun bütün duyğuları, sarsıntıları aydın hiss olunur. Mən də həyatda beləyəm, içimdəki emosiyaları bildirməyi sevmirəm. Bütün emosiyaların ifadəsini səhnədə canlandırıram. Rəqs etmək mənə çox böyük zövq verir. Və əlbəttə ki, birmənalı şəkildə hər bir yeni yaradıcı mühit, hər bir xoreoqraf-pedaqoq püxtələşməyə çox kömək edir.

*– Hazırda yaradıcılığınızda hansı yeniliklər var?*

– Hazırda Başqırdıstan Opera və Balet Teatrının bütün tamaşalarında məşğulam. Zəngin repertuarımız var. Və həmçinin yeni baletin məşqlərini aparırıq. Premyeraya hazırlaşırıq.

Həyatda olduğu kimi sənətdə də təsadüfi heç nə yoxdur. Məsələ burasındadır ki, 1993-95-ci illərdə XX əsrin ən görkəmli xoreoqraflarından biri Yuri Qriqoroviç Başqırdıstan Opera və Balet Teatrı ilə əməkdaşlıq edib. Və indi başqırd balerina Qriqoroviçin illər öncə quruluş verdiyi "Məhəbbət əfsanəsi"nin Məhmənəbanusunu belə mükəmməl ifa edir.

**Samirə Behbudqızı**

## Xatirə təqvimi — 1–3 noyabr

### Azərbaycan

**1 noyabr 1906** – Azərbaycanın ictimai-siyasi və ədəbi fikir tarixində önəmli rol oynamış "Füyuzat" (ərəbcədən "gerçəyi dərk edib zövq almaq") jurnalı nəşrə başlayıb. Hacı Zeynalabdin Tağıyevin yardımı ilə nəşr olunan jurnalın redaktoru Əli bəy Hüseynzadə idi.

**1 noyabr 1923** – Qəzəlxan şair Əliağa Bakir (Əliağa Hacağa oğlu Rzayev; 1923-1998) Bakıda anadan olub.

**1 noyabr 1939** – Azərbaycan SSR Xalq Komissarları Soveti Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıqla bağlı dahi şairin həyat və yaradıcılığından bəhs edən muzeyin (indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) yaradılması barədə qərar qəbul edib.

**1 noyabr 1945** – Kinorejissor, ssenarist Nicat Feyzullayev (1945-2015) Bakıda tanınmış rəssamlar Lətif Feyzullayev və Vəcihə Səmədovanın ailəsində anadan olub. "Küçələrə su səpmişəm" bədii və çoxsaylı sənədli filmlər çəkib.

**1 noyabr 1965** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 12.4.1889 – 1965) vəfat edib. 1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**1 noyabr 1994** – Türkiyənin paytaxtı Ankarada – Bilkənd Universitetində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Azərbaycan Prezidenti Heydər Əliyev iştirak edib.

**1 noyabr 2005** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (15.2.1933 – 2005) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə, televiziya tamaşalarında çəkilib.

**1 noyabr 2022** – Əməkdar incəsənət xadimi, kinorejissor, ssenarist Leyla Həzrət qızı Səfərova (15.10.1945 – 2022) vəfat edib.

**2 noyabr 1934** – Şair, Əməkdar müəllim Oqtay Rza (Oqtay Məhərrəm oğlu Rzalı; 1934 – 18.8.2019) Salyan rayonunun Qalalı kəndində doğulub. N.Tusi adına ADPİ-də işləyib. Dünya xalqları ədəbiyyatından tərcümələr edib.

**2 noyabr 1937** – Görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlu (Mahmudov; 1937 – 18.11.2000) anadan olub. "Hicran", "Bankir adaxlı" və s. musiqili komediyaların, populyar mahnıların müəllifidir. Tamaşalara, filmlərə ("Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Onun bəlalı sevgisi", "İstintaq" və s.) musiqi bəstələyib.

**2 noyabr 1947** – Əməkdar artist Telman Rüstəm oğlu Əliyev (1947 – 4.7.2017) Şuşa şəhərində anadan olub. Gəncə, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 noyabr 1964** – Əməkdar artist Murad Məmmədrza oğlu Muradov (1884-1964) vəfat edib. Ağdam rayonunun Muradbəyli kəndində doğulub, Akademik Dram Teatrının aktyoru olub.

**2 noyabr 1988** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökumə Abbasəli qızı Qurbanova (11.6.1913 – 1988) vəfat edib. 1938-ci ildən Akademik Dram Teatrında çalışıb.

**2 noyabr 1997** – Azərbaycanın ilk sənədli film rejissorlarından olan Niyazi Mustafa oğlu Bədəlov (1909-1997) vəfat edib. 1936-cı ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu (Sergey Eyzenşteynin sinfi) bitirib.

**3 noyabr 1943** – Tiflis Azərbaycan teatrının ilk peşəkar aktyorlarından olmuş Mirzəli (Əlibala) Hacı Abbas oğlu Abbasov (1870-1943) vəfat edib. Tamaşalara quruluş verib, pyeslər yazıb. Gürcüstanın Əməkdar artisti olub.

**3 noyabr 1983** – Görkəmli aktyor, Xalq artisti Əliağa İsmayıl oğlu Ağayev (22.3.1913 – 1983) vəfat edib. Dövlət Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çalışıb. Filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 noyabr 1997** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (23.11.1937 – 1997) vəfat edib. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**3 noyabr 2007** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Böyükağa Məşədi oğlu Mirzəzadə (21.2.1921 – 2007) vəfat edib. Tematik tablolar, portret janrında uğurlu nümunələr yaradıb, teatr tamaşalarına bədii tərtibat verib.

**3 noyabr 2018** – Prezident İlham Əliyev milli mədəni-maarif salnaməsində xüsusi yeri olan Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**1 noyabr 1636** – Fransız şairi, ədəbiyyatşünas, klassisizmin nəzəriyyəçisi Nikola Bualo (Nicolas Boileau-Despreaux; 1636 – 13.3.1711) anadan olub.

**1 noyabr 1781** – Alman rəssamı Yozef Karl Ştiler (Joseph Karl Stieler; 1781-1854) anadan olub.

**2 noyabr 1699** - Fransız rəssamı Jan Batist Simeon Şarden (Jean Baptiste Simeon Chardin; 1699-1779) anadan olub.

**2 noyabr 1906** – İtalyan kino və teatr rejissoru Lukino Viskonti (Luchino Visconti di Modrone; 1906 – 17.3.1976) anadan olub. Filmləri: "Rokko və onun qardaşları", "İnteryerdə ailə portreti" və s.

**2 noyabr 1950** – İrland əsilli Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1925) laureatı Corc Bernard Şou (George Bernard Shaw; 26.7.1856 – 1950) vəfat edib.

**3 noyabr 1797** – Rus yazıçısı Aleksandr Bestujev-Marlinski (1797-1837) anadan olub. Qafqaza sürgün olunub. Azərbaycan xalq qəhrəmanın həyatından bəhs edən "Molla Nur" povestini yazıb.

**3 noyabr 1801** – İtalyan bəstəkarı Vinçenso Bellini (Vincenzo Salvatore Carmelo Francesco Bellini; 1801-1835) anadan olub. Operaları: "Norma", "Somnambula" və s.

**3 noyabr 1869** – Rus şərqşünası, akademik Vasili Bartold (1869–1930) anadan olub. "Kitabi-Dədə Qorqud"un bəzi boylarını rus dilinə tərcümə edib.

**Hazırladı: V.Orxan**

# "Cultech Akademiyası" kursu təşkil ediləcək

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Mədəniyyət və yaradıcı sənayelər üzrə tədris və inkubasiya mərkəzində "Cultech Akademiyası" kursu təşkil ediləcək.




"Cultech Akademiyası" proqramları mədəniyyət texnologiyaları sahəsində fəaliyyət göstərmək istəyən mütəxəssislərin bilik və bacarıqlarının artırılmasına yönəlib.

Mədəni irsin rəqəmsallaşdırılması istiqamətində proqramlaşdırma kursunun nəzdində tələbələrə "Flutter" ilə mobil proqramlaşdırmanın əsasları, tətbiq interfeysinin hazırlanması, vidcet strukturları, mənbələr və alətlərin öyrədilməsi nəzərdə tutulub. Həmçinin artırılmış reallıq (AR) texnologiyalarının əsas prinsipləri və praktiki vərdişlər tədris ediləcək.

"Cultech Akademiyası" kursuna müraciətlər oktyabrın 31-dək edu.creative.az linki vasitəsilə aparılıb.

4 ay müddətinə nəzərdə tutulan kursun sonunda iştirakçılar diplom işləri hazırlayaraq ilk peşəkar portfolioya sahiblənəcəklər.

# Daşkənd və Xarəzmdə Azərbaycan mədəniyyəti və poeziyası həftəsi



Xəbər verdiyimiz kimi, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi və təşkilatçılığı ilə 23-26 oktyabr tarixlərində qardaş ölkənin Daşkənd və Xarəzm vilayətlərində "Azərbaycan mədəniyyəti və poeziyası həftəsi" keçirilib.

Həftə çərçivəsində oktyabrın 23-də Özbəkistan Yazıçılar Birliyində Azərbaycanın Xalq şairi Vahid Əzizlə görüş təşkil olunub. Həmçinin Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində "Müasir dövr Azərbaycan-Özbəkistan ədəbi əlaqələri" mövzusunda müzakirələr aparılıb.

Oktyabrın 24-də Özbəkistan Sənət və Mədəniyyət İnstitutunda Azərbaycan poeziyası və musiqisinə həsr olunan ədəbi-bədii tədbirdə Xalq şairi Vahid Əzizin şeirləri səsləndirilib, gənc xanəndələr Mirələm Mirələmov və Kamilə Nəbiyeva instrumental ifaçıların müşayiəti ilə muğamlarımızdan parçalar oxuyublar. Özbəkistanda yaşayan azərbaycanlı ifaçı İlham Abdullayev milli saz havalarımızı və AMM nəzdindəki "Azərbaycan qızları" rəqs ansamblı milli rəqslərimizi təqdim edib.

Ertəsi gün Azərbaycanın poeziya nümayəndələri, incəsənət ustalarının iştirakı ilə daha bir ədəbi-bədii, musiqili proqram Xarəzm vilayətindəki Urgənc Dövlət Universitetində təqdim olunub.

Universitetdə AMM-nin layihəsi ilə yaradılmış Yusif Vəzir Çəmənzəminli adına Azərbaycan mədəniyyəti və ədəbiyyatı mərkəzinin açılışı olub.

Məlumat verilib ki, 1925-ci ildə yaradılan Urgənc Dövlət Universitetində hazırda 9 fakültədə 93 ixtisas üzrə 20 mindən çox tələbə təhsil alır. Burada təşkil edilən Yusif Vəzir Çəmənzəminli adına mərkəzdə Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatına aid kitablar, o cümlədən AMM-in nəşrləri, disklər, dərs vəsaitləri, milli suvenirlər, fotolar, xəritələr və s. yer alıb. Diqqətə çatdırılıb ki, görkəmli azərbaycanlı ədib, ictimai xadim, repressiya qurbanı Y.V.Çəmənzəminli 1938-40-cı illərdə Urgənc Dövlət Universitetində müəllim kimi çalışıb.




Azərbaycan mədəniyyəti və poeziyası həftəsi çərçivəsində Urgənc Dövlət Universitetində "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" kitabının təqdimatı və Azərbaycan mədəniyyəti və ədəbiyyatına dair tədbir də təşkil olunub.

Tədbirdə Urgənc Dövlət Universitetinin rektoru professor Baxrom Abdullayev, Özbəkistanın Xarəzm Vilayəti rəhbərinin müavini Batır Saidov çıxış edərək Xarəzm vilayətində artıq ikinci dəfə Azərbaycan mədəniyyəti və ədəbiyyatına həsr olunmuş tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

AMM-in direktoru Samir Abbasov "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" nəşri haqqında məlumat verib.

Tərcüməçi-alim Babaxan Şərif də beş dildə (Azərbaycan, özbək, türk, rus, ingilis) çap olunan "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ensiklopedik nəşrindən söz açıb, kitabın Şuşa şəhəri haqqında dəyərli mənbə olduğunu vurğulayıb.

Universitet tələbələri tərəfindən Azərbaycan şairlərinin şeirlərindən nümunələr səsləndirilib. Xanəndələr Mirələm Mirələmov, Kamilə Nəbiyeva, kamança ifaçısı Elnur Mikayılov, tar ifaçısı Zəki Vəliyev və Əməkdar artist, nağaraçı Kamran Kərimov milli muğamlarımızdan parçalar, İlham Abdullayev saz havalarımızı, universitetin rəqs qrupunun üzvləri isə Azərbaycan rəqslərini tamaşaçılara təqdim ediblər.

# "Yapon şiri" Bakıya gəlmişdi...

Yaponiyanın Azərbaycandakı Səfirliyi və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Yapon mədəniyyəti və "Şişimai" – ənənəvi yapon "Şir rəqsi" adlı tədbir keçirilib.



Yaponiya səfiri Cuniçi Vada ölkəsində festivallar zamanı ifa olunan "Şir rəqsi" və ifaçı haqqında məlumat verib, bu cür tədbirlərin Azərbaycanda Yaponiyaya və yapon mədəniyyətinə olan marağın daha da artmasına zəmin olacağına inandığını bildirib.

Bildirilib ki, şişimai uzun tarixə malik ənənəvi rəqs növü olub, şirin hərəkətlərinin təqlidi və onun enerjisinin ötürülməsini özündə ehtiva edən rəqsdir. Yaponiyanın bir çox regionlarında geniş yayılmış bu rəqs əsasən festivallar zamanı ifa olunur. Vurğulanıb ki, ifaçı Kaiden Masanori artıq 25 ilə yaxındır ənənəvi yapon rəqsini və festival adət-ənənələrini dünyanın bir çox ölkələrində təbliğ edir.

Sonra yaponiyalı ifaçı "şir rəqsi"ni təqdim edib. Kaiden Masanorinin tayko yapon barabanı və digər milli musiqi alətlərində ifası maraqla qarşılanıb. Proqramda digər ənənəvi yapon festival rəqsləri haqqında da məlumatlar verilib, rəqslər nümayiş olunub.

"Düşünürəm ki, bugünkü konsert yapon mədəniyyətinin təqdim olunması, azərbaycanlılara tanıdılması üçün çox gözəl bir şansdır. Mən Azərbaycana ilk dəfədir gəlirəm. Çox sevindiricidir ki, burada yapon mədəniyyətini, mətbəxini, Yaponiyanı sevənlərin sayı çoxdur. Ümumiyyətlə, çox sayda insan məni yapon dilində salamlayır, çox yaxşı şəkildə qarşılayır", – deyə Kaiden Masanori jurnalistlərə müsahibəsində bildirib.

Qafqaz musiqisi ilə tanışlığından bəhs edən ifaçı qeyd edib ki, bu musiqinin çox gözəl enerjisi var. O, ayrıca Azərbaycan musiqisini də öyrənmək istədiyini deyib.

# "Təbiətin vibrasiyaları"nın sərgisi

Müasir İncəsənət Mərkəzində "Vibe of Nature" ("Təbiətin vibrasiyaları") hesabat sərgisinin açılışı olub. Sərgi bu yaxınlarda bir qrup rəssamın iştirakı ilə Şabranda keçirilmiş eyniadlı simpoziumun yekunudur.



Ekspozisiyaya simpozium iştirakçıları Anar Hüseynzadə, Zümrad Hüseynzadə, Elşən Karaca, Şəbnəm Karaca, Aydın Əsgərov, Anar Bəylər, Saliha Bəylər, Təranə Vaqifqızının əsərləri daxil olub.

Rəssamların Şabrana səfəri barədə çəkilmiş film də göstərilib.

Xatırladaq ki, "Vibe of Nature" simpoziumu Birləşmiş Rəssamlar Klubunun təşəbbüsü və "Çardaq" qrupunun art-platforması ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Rəssamlar İttifaqı və "Shabran Wellbeing Resort" hotelinin dəstəyi ilə təşkil olunub. Layihənin kuratoru rəssam Bəhram Xəlilovdur.

# Kömür mədənində 47 nəfər həlak olub

Qazaxıstanda Karaqanda vilayətindəki Kostenko adına kömür mədənində oktyabrın 28-də baş verən partlayış və yanğın nəticəsində 47 şaxtaçı həlak olub. Hadisə zamanı mədəndə olan 252 nəfərdən 205-i xilas edilib. Xəsarət alan 27 şaxtaçı hazırda xəstəxanada müşahidə altındadır. Hakimiyyət orqanları hadisə ilə bağlı istintaqa başlayıblar.



Oktyabrın 31-nə olan məlumata görə, 45-ci şaxtaçının cəsədi tapılıb. Həlak olanlardan 40-nın şəxsiyyəti müəyyənləşib.

"Mədən yollarının uzunluğu, elektrik enerjisinin olmaması, mexanizmlərin dağılması axtarış işlərini çətinləşdirir. Mədənin bəzi hissələrinin suyun altında qalması da əlavə çətinliklər yaradır", – deyə Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov bildirib.

Bu, Qazaxıstanda müstəqillik dövründə baş vermiş ən böyük mədən qəzasıdır. Oktyabrın 29-u ölkədə matəm günü elan olunub.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev hadisə ilə bağlı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə başsağlığı verib.

# "Məni candan usandırdı" ingilis portalında




İngiltərənin "Write Out Loud" ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində dahi şair Məhəmməd Füzulinin ingilis dilinə tərcümə edilmiş "Məni candan usandırdı" qəzəlini yayımlayıb.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, qəzəl görkəmli bəstəkar Cahangir Cahangirovun məşhur "Füzuli kantatası"Xalq artisti Şövkət Ələkbərovanın ifasında təqdim edilir.

Qeyd edək ki, geniş oxucu auditoriyası tərəfindən izlənən "Write Out Loud" portalı mütəmadi olaraq səhifələrində dünya ədəbiyyatından nümunələrə yer ayırır.

# "Beatles"in mahnısı süni intellekt vasitəsilə təqdim ediləcək

Dünyaca məşhur "Bitlz" ("The Beatles") qrupunun heç kimə məlum olmayan "Now and Then" mahnısı qrupun 43 il əvvəl vəfat etmiş solisti, bəstəkar Con Lennonun süni intellekt vasitəsilə canlandırılan səsi ilə musiqisevərlərə təqdim ediləcək.



Con Lennonun 1970-ci illərə aid bir kasetdə qeyd olunmuş mahnısının qaralama versiyası qrupun gitaraçısı Pol Makkartni və zərb alətləri ifaçısı Rinqo Starr tərəfindən ötən il tamamlanıb. Süni intellekt vasitəsilə hazırlanan versiya noyabrın 2-də musiqisevərlərə təqdim ediləcək.

Pol Makkartni jurnalistlərə müsahibəsində bildirib ki, süni intellektin imkanları sayəsində Lennonun səsi qüsursuz şəkildə mahnıya köçürülüb və nəticədə indiyədək heç kimin qulaq asmadığı bir mahnı ərsəyə gətirilib. O, sınaq prosesini "möhtəşəm yaradıcılıq işi" adlandırıb.

Bununla yanaşı, "Beatles" qrupunun "Red and Blue" adlı albomunun da yeni versiyası noyabrın 10-da satışa çıxarılacaq. Con Lennonun həyat yoldaşı Yoko Ono 1995-ci ildə – məşhur qrupun antologiyasını hazırladığı vaxt "Now and Then" mahnısının qaralama variantının yazıldığı kaseti Pol Makkartniyə verib.

Mahnının üzərində işləyən səs redaktoru Emile de la Rey süni intellektin imkanlarından istifadə edərək "Beatles" üzvlərinin səslərini arxa plan səs-küyündən ayırıb və mükəmməl bir versiya təqdim edib.

Qeyd edək ki, əfsanəvi "Liverpul dördlüyü"ndən iki nəfər – Pol Makkartni və Rinqo Starr sağdır. Qrupun digər iki üzvü – Con Lennon (1940-1980) və Corc Harrison (1943-2001) dünyasını dəyişib.




## Olaylar, faktlar
## (31 oktyabr – 3 noyabr)

### 139 il əvvəl...



**1 noyabr 1884-cü ildə** beynəlxalq miqyasda coğrafi uzunluq və saat zolağının başlanğıc nöqtəsi kimi Qrinviç meridianı (yaxud sıfır meridianı) qəbul edilib. Qrinviç meridianı Londondakı Qrinviç rəsədxanasının yerləşdiyi yerdən hesablanır.

### 102 il əvvəl...

**3 noyabr 1921-ci ildə** Rusiya K(b)P Mərkəzi Komitəsi Qafqaz Bürosunun plenumu Cənubi Qafqazın üç sovet respublikasının – Azərbaycan, Ermənistan və Gürcüstanın federasiyasının yaradılması barədə qərar qəbul edib. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası 1922-ci ildə yaradıldı və Sovet İttifaqının (SSRİ) təsisçilərindən biri oldu. ZSFSR 1936-cı ilədək fəaliyyət göstərdi və həmin il qəbul edilən SSRİ-nin yeni Konstitusiyasına əsasən, Azərbaycan, Ermənistan və Gürcüstan Sovet İttifaqının müttəfiq respublikalarına çevrildilər.

### 101 il əvvəl...

**1 noyabr 1922-ci ildə** Türkiyə Böyük Millət Məclisi (TBMM) Osmanlı səltənətinin sona çatması barədə qərar qəbul edib. Qərarda TBMM-in ölkə ərazisində həqiqi hökmran və hüquqi hakimiyyət olduğu vurğulanırdı. Axırıncı Osmanlı Sultanı VI Mehmed (Vahideddin) noyabrın 10-da İstanbula son cümə namazına qatılıb və noyabrın 17-də səhər ingilis hərbi gəmisi ilə Maltayaya göndərilib.

### 100 il əvvəl...

**2 noyabr 1923-cü ildə** Azərbaycanı Tədqiq və Tətəbbö (Araşdırma) Cəmiyyəti – respublikanın baş elmi müəssisəsi təsis olunub. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1929-cu il 9 noyabr tarixli qərarı əsasında Azərbaycan Elmi-Tədqiqat İnstitutuna çevrilib. Daha sonra institutun bazasında SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təşkil olunub.

### 69 il əvvəl...

**1 noyabr 1954-cü ildə** Əlcəzairdə Fransa müstəmləkəçiliyi əleyhinə inqilab başlanıb. Əlcəzairin milli-azadlıq mübarizəsi 8 il sürdü və 1962-ci ildə Əlcəzair Xalq Demokratik Respublikası elan edildi. 1 noyabr Əlcəzairdə milli bayram – İnqilab Günü kimi qeyd olunur. Əlcəzair XVI əsrin əvvəlindən Osmanlı imperiyasının tərkibində olmuş, 1830-cu ildən isə Fransanın müstəmləkəsinə çevrilmişdi.

### 31 il əvvəl...



**31 oktyabr 1992-ci ildə** Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan dövlət başçılarının ilk zirvə toplantısı (29-31 oktyabr) başa çatıb. Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə gerçəkləşən sammitdə türkdilli ölkələrin əməkdaşlıq platforması qurulub. 2009-cu ildə (Naxçıvan sammiti) Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması barədə qərar qəbul edilib. Türk Şurası bir il sonra İstanbul sammitində rəsmən təsis olunub. 2021-ci ildə Türk Dövlətləri Təşkilatı adlandırılıb.

### 28 il əvvəl...

**1 noyabr 1995-ci ildə** ABŞ-nin Ohayo ştatının Deyton şəhərində Bosniya və Herseqovinadakı qanlı münaqişənin nizamlanmasına dair yekun danışıqlar başlanıb. ABŞ-nin himayəsi altında keçirilən danışıqlarda Bosniya münaqişəsinin üç əsas tərəfi (üç etnik qrup üzrə) – Bosniya müsəlmanlarının (boşnaklar) lideri Aliya İzzətbəyoviç, Xorvatiya prezidenti Franyo Tuncman və Serbiya prezidenti Slobodan Miloşeviç iştirak edirdi. Danışıqlar Bosniya üzrə sülh sazişinin imzalanması ilə başa çatdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2891
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641